AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — *№ 20 (1365), 15 - 21 may 2018-ci il* — *Qəzet 2001-ci ildən çıxır.*

## *Britaniya Paralimpiya Assosiasiyasının fəxri vitse-prezidenti Entoni Sensberdən*

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Zati-aliləri, 2015-ci ildə Bakıda birinci Avropa Oyunları keçirilərkən mənə Beynəlxalq Paralimpiya Komitəsinin indiki prezidenti Endrü Parsonla birlikdə Sizinlə görüşmək şərəfi nəsib olmuşdur.

Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq zamanı, cənab Prezident, Sizin və birinci xanım Mehriban Əliyevanın paralimpiya idmançılarına və fiziki qüsurlu uşaqlara göstərdiyiniz diqqət və qayğının şahidi olmuşam və bunu yüksək qiymətləndirirəm.

Zati-aliləri, Sizə və ailənizə, həmçinin Azərbaycan xalqına qarşıdakı illərdə bol-bol uğurlar və firavanlıq arzulayıram.

***Hörmətlə,***
***Entoni Sensber***
***Britaniya Paralimpiya Assosiasiyasının fəxri vitse-prezidenti***

## Azər Əliyev AOK-un Avropa Yeniyetmələrinin Olimpiya Festivalı Komissiyasına üzv seçilib



Serbiyanın Belqrad şəhərində Avropa Olimpiya Komitəsinin (AOK) İcraiyyə Komitəsinin iclası və qurumun 47-ci Baş Assambleyası keçirilib. Tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini Azər Əliyev Avropa Olimpiya Komitəsinin (AOK) Avropa Yeniyetmələrinin Olimpiya Festivalı Komissiyasının üzvü seçilib.

## Radik İsayev Avropa çempionatının ikiqat qalibidir

Azərbaycan millisi yarışın ilk günündə bir medal qazanıb.

Belə ki, 49 kq çəki dərəcəsində mübarizə aparan Patimat Abakarova bolqarıstanlı Nikol Çorbanovanı və rusiyalı Svetlana İqumenovanı məğlub edərək, yarımfinala vəsiqə qazanıb. Lakin Olimpiya mükafatçımız bu uğurunu davam etdirə bilməyib. O, finala gedən yolda Kristina Tomiçə (Xorvatiya) məğlub olaraq, bürünc medalla kifayətlənib.

Komandamıza qitə çempionatında növbəti medalı yığma komandanın üzvü Milad Beigi Herçəqani (80 kq) qazandırıb. Taekvondoçumuz polşalı Karol Holudovic və ispaniyalı Raul Martinezə qalib gələrək yarımfinala yüksəlib. Rusiyalı Maksim Kramtcov ilə həlledici mərhələyə vəsiqə uğrunda mübarizədən məğlub ayrılan idmançımız çempionatı bürünc medalla başa vurub.



Yarışın sonuncu günü Azərbaycan milli komandasının üzvü Radik İsayev dayanq üzərinə çıxıb. Avropa Oyunlarının və IV İslam Həmrəyliyinin Oyunlarının qalibi, Avropa, dünya və Olimpiya çempionumuz, dünya kubokunun ikiqat sahibi olan Radik İsayev Rusiyadakı qitə çempionatında da qızıl medal qazanıb.

Rəqibləri olan Yunanıstan idmançısı Atanasios Nikoladis, rusiyalı Yuri Kiriçenka və Roman Kuznetsovu məğlub edən yığmamızın üzvü yarışda fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bu, 2014-cü ildə də qitənin ən yaxşısı olan taekvondoçumuzun ikinci belə uğurudu.

Beləliklə, millimiz Avropa çempionatını 1 qızıl və 2 bürünc medalla başa vurub.

## Saymon Kleq Avropa Olimpiya Komitələrinin Avropa Oyunları üzrə icraçı direktoru təyin edilib

Bakı-2015 birinci Avropa Oyunlarının Əməliyyat Komitəsinin (BEGOC) əməliyyatlar üzrə baş direktoru, britaniyalı idman təşkilatçısı Saymon Kleq yenidən Avropa Olimpiya Komitələrinin (AOK) Avropa Oyunları üzrə icraçı direktoru vəzifəsinə təyin edilib.

Saymon Kleq 2013-cü ildə qısa müddətdə bu vəzifədə fəaliyyət göstərib. Belə ki, o, Azərbaycanda keçirilən birinci Avropa Oyunlarına hazırlıq işləri ilə əlaqədar Bakı-2015 Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru vəzifəsində çalışıb.

Britaniyalı idman təşkilatçısının yeni vəzifəsi Avropa Olimpiya Hərəkatının əsas idman tədbiri olan II Avropa Oyunlarına hazırlıq prosesində Minsk Avropa Oyunları Əməliyyat Komitəsi (MEGOC) ilə mütəmadi əməkdaşlıq etmək olacaq.




Saymon Kleqin yeni vəzifəyə təyin olunmasına münasibət bildirən AOK prezidenti Janez Koçijançiç deyib: "Çox şadam ki, Saymon Kleq yenidən bizim sıralarımıza qoşulub. Onun Olimpiya hərəkatındakı 30 illik səriştəsi və Bakıda əldə etdiyi zəngin təcrübə AOK-un və MEGOC-un işinə dəstək verilməsində həlledici rol oynayacaq. Avropa Oyunları konsepsiyası yeni olmasına baxmayaraq, AOK-un ən mühüm dəyərlərindən biridir. Bu təyinat Avropa Oyunları kimi mühüm idman yarışının gələcəkdə də uğurla davam etdirilməsi istiqamətində fəaliyyətimizi daha da gücləndirəcək".

Saymon Kleq isə bu barədə bildirib: "Yenidən AOK-un sıralarına qoşulmağımla əlaqədar aldığım dəvətə görə çox minnətdaram. Olimpiya Oyunları təşkilatçılıq baxımından birbirinə bənzəmir. Buna görə də Bakı-2015 ilə Minsk-2019 birbirindən fərqli olacaq. Əsas məqsədimiz idmançıların öz bacarıqlarını göstərə bilmələri üçün mükəmməl şərait yaratmaqdır. İnanıram ki, Belarus II Avropa Oyunlarında da davam etdirilməsi işinə töhfə verməyi səbirsizliklə gözləyirəm".

## "Bakı Marafonu 2018" uğurla başa çatdı



Mayın 13-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Bakı Marafonu 2018" adı altında tədbir keçirilib.

Marafonda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva da iştirak ediblər. "Küləyə qalib gəl" şüarı altında keçirilən Bakı marafonu ardıcıl olaraq üçüncü ildir ki, təşkil olunur. Builki marafonda iştirak üçün 18 000-dək şəxs qeydiyyatdan keçib.

Dövlət Bayrağı Meydanından start götürən Bakı marafonu 21 kilometr məsafəni əhatə etməklə Bakı Olimpiya Stadionunda başa çatıb. Bakı marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək, insanları xeyirxah amallar ətrafında bir araya gətirmək məqsədi daşıyır. Marafona Azərbaycanın regionlarının - Gəncə, Sumqayıt, Mingəçevir, Quba, Qusar, Lənkəran, Astara, Naxçıvan, Qəbələ, Şamaxı, Zaqatala, Şəki, Oğuz və digər bölgələrin sakinləri qoşulublar.

Bakı Marafonunda Azərbaycan vətəndaşları ilə yanaşı, İtaliya, Fransa, Rusiya, Türkiyə, İran, Gürcüstan, Ukrayna, Belarus, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), İraq, ABŞ, Çin, Malayziya, Hindistan, Yaponiya, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Kolumbiya, Litva, Latviya, Almaniya, Çex Respublikası və digər ölkələrin təmsilçiləri iştirak ediblər. Yürüşdə bir sıra xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri də olublar.

Marşrutu 1 saat 6 dəqiqəyə qət edən Ukrayna vətəndaşı İqor Olefirenko birinci olub. Finişə iranlı Məhəmməd Cəfər Muradi ikinci, türkiyəli Ömər Alkanoğlu isə üçüncü çatıb.

"Küləyə qalib gəl" şüarı altında keçirilən "Bakı Marafonu 2018" başa çatdıqdan sonra kişi və qadın kateqoriyaları üzrə qaliblərinin mükafatlandırma mərasimi baş tutub. Mükafatlandırma mərasimi Bakı Olimpiya Stadionunda keçirilib. Kişi və qadın kateqoriyalarının hər birində ilk yerin sahibi 3 min, ikinci yeri tutan 2 min, üçüncü yerə çıxan isə min manat məbləğində mükafatlarla, eləcə də medallarla təltif ediliblər.

Kişilər arasında Ukrayna vətəndaşı İqor Olefirenko birinci, iranlı Məhəmməd Cəfər Muradi ikinci, türkiyəli Ömər Alkanoğlu isə üçüncü yerə sahib çıxıb. Qadınların arasında isə türkiyəli Çelik Fadimə, ukraynalı Valentina Poltavska, Rusiyadan olan Anastasiya Petrova müvafiq olaraq I-III yerləri tutublar. "Bakı Marafonu 2018"də paralimpiyaçılar arasında isə qalib Mehman Ramazanzadə olub. Həmçinin "Azercell" şirkətinin köynəyində yarışanlar arasında qalib olan Namiq Əsədova, ikinci yeri tutan Samir Paşayevə və üçüncü olan Tural Sadıxlıya isə müxtəlif hədiyyələr təqdim olunub.

Məlumat üçün bildirək ki, Bakı marafonu Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2016-cı ildən keçirilir.

## Azərbaycan nümayəndə heyəti AOK-un tədbirində iştirak edib




Mayın 9-12-də Serbiyanın Belqrad şəhərində Avropa Olimpiya Komitəsinin (AOK) İcraiyyə Komitəsinin iclası və qurumun 47-ci Baş Assambleyası keçirilib.

Tədbirdə Azərbaycanı AOK-un İcraiyyə Komitəsinin üzvü, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, beynəlxalq əlaqələr idarəsinin rəisi Anar Bağırov və marketinq idarəsinin direktoru Mehman Kərimov təmsil ediblər.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə mayın 10-da AOK-un İcraiyyə Komitəsinin iclasında iştirak edib.

Mayın 11-12-də Avropa Olimpiya Komitəsinin Baş Assambleyasının iclası və AOK-un 39-cu seminarı təşkil edilib. Seminar çərçivəsində AOK-un müxtəlif komissiyalarının dörd illik fəaliyyətinə yekun vurulduqdan və növbəti dörd il üçün fəaliyyət istiqamətləri müəyyənləşdirildikdən sonra üzvlərin və rəhbərliyin seçkisi keçirilib. Tədbirdə AOK-un prezidenti Janez Koçijançiç, baş katib Rafael Paqnozzi, Milli Olimpiya Komitələri Assosasiyasının baş katibi Qunilla Lindberq iştirak ediblər. Tədbirdə, həm də Pxençxan-2018, Tokio-2020 Olimpiya Oyunlarının, eləcə də, Minsk-2019 Təşkilat Komitələrinin hesabat çıxışları dinlənilib. AOK-un 47-ci Baş Assambleyasının keçiriləcəyi ölkənin adı da burada açıqlanıb.

Azərbaycan nümayəndə heyəti tədbirdə 2019-cu ildə ölkəmizdə keçiriləcək Yeniyetmələrin Yay Olimpiya Oyunlarının təqdimatı ilə çıxış edib.

**Futbol üzrə dünya çempionatına 30 gün qalır**

FIFA WORLD CUP RUSSIA 2018

***Anons***

Qrup komandamız Portuqaliyada bir dəst medala layiq görüldü — Səh. 2

Ümummilli liderin xatirəsinə həsr olunmuş turnirlər keçirilib — Səh. 5

"Məhsul" idman cəmiyyətində milli idman oyunlarının tarixi ənənəsi qorunur — Səh. 4

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

Gimnastika

## Qrup komandamız Portuqaliyada bir dəst medala layiq görüldü



Bədii gimnastlarımızdan xoş xəbər bu dəfə Portuqaliyadan gəlib.

Portimao şəhərində keçirilən “Challenge” seriyasından Dünya kuboku yarışlarında ölkəmizin bədii gimnastika üzrə qrup hərəkətləri komandası 3 dəfə fəxri kürsüyə yüksəlməyi bacarıb. Bütün mümkün finallarda medal qazanan qrup komandamız ilk dəfə olaraq çoxnövçülükdə fərqlənərək, iki kompozisiyanın nəticəsinə əsasən bürünc medala sahib olub.

Siyana Vasileva, Aliyə Paşayeva, Diana Doman, Ayşən Bayramova və Zeynəb Hümmətovadan ibarət komandamız halqalarla hərəkətlərdə gümüş, top və iplərlə hərəkətlərdə isə qüsursuz çıxış edərək qızıl medala layiq görülüb. Beləliklə, Portuqaliyada Azərbaycanın dövlət himnini səsləndirən bədii gimnastlarımız beynəlxalq yarışdan bir dəst medalla qayıdıblar.

Bədii gimnastlarımız daha bir uğura İspaniyanın Quadalahara şəhərində keçirilən beynəlxalq turnirdə imza atıblar.

Yeniyetmə gimnastlarımız Nərminə Səmədova və Arzu Cəlilova komanda hesabında (88.550 xal) turnirin bürünc medalına layiq görülüblər. Siyahıda 4-cü yerdə də 86.950 xalla digər Azərbaycan gimnastları Dərya Farşbafşəhriyari və Yelizaveta Luzan qərarlaşıb.

Qızlarımız fərdi final yarışlarında da mübarizə aparıblar. Nəticələrə əsasən, Arzu Cəlilova gürzlərlə 4-cü, lentlə isə 7-ci olub. Luzan isə halqa ilə çıxışına görə 6-cı pillədə yer alıb.

Cüdo

## Qitə kubokunda 2 medal



Rusiyanın Orenburq şəhərində cüdo üzrə Avropa kuboku yarışları keçirilib. Turnirdə 16 ölkədən 279 cüdoçu mübarizə aparıb.

Yarışda 60 kiloqram çəki dərəcəsində Azərbaycan finalı olub. Belə ki, Mehman Sadıqov və Kəramət Hüseynov bütün rəqiblərinə qalib gələrək həlledici qarşılaşmada üz-üzə gəliblər. Finalda Kəramət Hüseynova qalib gələn Mehman Sadıqov qızıl medala layiq görülüb. Kəramət Hüseynov isə Avropa kubokunu gümüş medalla başa vurub.

## Həkim-magistrantların Böyük Britaniyaya elmi-təcrübə səfəri başladı

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında “İdman tibbi və reabilitasiya” magistratura pilləsində təhsil alan I kurs həkim-magistrantlarının ixtisas üzrə bilik səviyyələrini artırmaq, beynəlxalq səviyyədə tədqiqatları aparmaq, elmi bacarıqlarını inkişaf etdirmək məqsədilə Böyük Britaniyada tədris təcrübələrinə start verilib. 2 həftə davam edən təcrübə proqramı zamanı magistrantların London və Şeffild şəhərlərinə səfərləri nəzərdə tutulub.



Belə ki, Londonda həkimlər Britaniyanın öndə olan ali təhsil ocağı UCL universitetinin İdman Tibbi İnstitutuna gedərək, elit idman növlərində tibbi və reabilitasiya sahəsində yeniliklər ilə tanış ola və dünyaca məşhur Uimbldonda tennisçilərin zədə xüsusiyyətlərini öyrənəcəklər. Səfər zamanı tələbələr İngiltərənin Olimpiya boks yığmasının idman həkimlərinin işini yaxından izləyə və reabilitasiya ilə məşğul olan aparıcı klinikaların işi ilə tanış olmaq imkanı əldə edəcəklər.

Şeffilddə isə magistrantlar onkoloji xəstələr üçün nəzərdə tutulmuş reabilitasiya mərkəzinə səfər edəcək və İngiltərənin İdman reabilitasiya İnstitutunda idmançıların travmadan sonra bərpa üsulları ilə tanış olacaqlar. Londonda olduğu kimi, Şeffild şəhərində də həkimlər reabilitasiya ilə məşğul olan klinikaların təcrübəsini mənimsəyəcəklər. Bu sahədə xarici ölkələrin təcrübəsinin öyrənilməsi həkim-magistrantlar üçün əvəzolunmazdır.

Karate

***Serbiyanın Novı-Sad şəhərində WKF karate üzrə Avropa çempionatı ilə yanaşı, ilk dəfə qitə üzrə parakarate çempionatı keçirilib.***

***Turnirdə 15 ölkədən 100-dək idmançı iştirak edib. Azərbaycan bu yarışda 17 iştirakçı ilə təmsil olunub.***

## Karateçimiz 11-ci dəfə Avropa çempionu adını qazanıb

Kişilərin kumite yarışlarında tatamiyə 75 kq çəki dərəcəsində 40 karateçi çıxıb. Beşqat dünya çempionu Rafael Ağayev litvalı, latviyalı və türkiyəli idmançılara eyni hesabla (1:0) qalib gəlib. Rafael yarımfinalda italiyalı Luici Busu məğlub edib. Finalda macarıstanlı idmançıya qalib gələn karateçimiz 11-ci dəfə Avropa çempionu adını qazanıb.

Kişilər arasında kumite yarışlarında + 84 kq çəki dərəcəsində 33 idmançı iştirak edib. İlk dövrədə Şahin Hətəmov danimarkalı rəqibinə 2:1, sonra albaniyalı karateçiyə 1:0 hesabı ilə qalib gəlib. Təmslçimiz növbəti mərhələlərdə Hollandiya və İspaniya karateçilərindən üstün olub. Finalda Azərbaycan təmsilçisi bosniyalı idmançıya uduzaraq gümüş mükafata layiq görülüb.



Azərbaycanın aktivinə daha bir gümüş medalı İrina Zaretska yazdırıb. O, kumite yarışlarında 68 kq çəki dərəcəsində 36 qadın arasında ikinci olub. Karateçimiz ilk görüşündə Bosniya təmsilçisinə 1:0 hesabı ilə qalib gəlib. Növbət görüşdə Sloveniya, İsveç və Slovakiya idmançılarını mübarizədən kənarlaşdıran xanım karateçimiz yarımfinala yüksəlib. Bu mərhələdə Makedoniya təmsilçisini də məğlub edən İrina Zaretska finala vəsiqə qazanıb. Həlledici görüşdə İsveçrə idmançısına uduzan təmsilçimz ikinci yeri tutub.

## Triatlonçumuz Olimpiya marafonunda iştirak edib

Azərbaycan triatlon yığması Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün Olimpiya marafonunda iştirak edib. Komandamız Yaponiyanın Yokohama şəhərində keçirilən dünya seriyasının üçüncü mərhələsində iştirak edib. Yarışda Rostislav Pevtsov 6-cı nəticə göstərib.




R.Pevtsov 1500 metrlik su məsafəsini 17 dəqiqə 47 saniyəyə başa vurub. Ardınca isə 40 kilometrlik velodistansiyanı 55 dəqiqə 58 saniyəyə qət edib. İdmançımız yarışların sonuncu mərhələsi - 10 kilometrlik qaçış zolağını 30 dəqiqə 57 saniyəlik nəticə ilə başa vurub. Ümumi hesabda R.Pevtsov 1 saat 46 dəqiqə 13 saniyə vaxt göstəricisi ilə 6-cı yerdə qərarlaşıb.

Turnirdə 55 idmançı mübarizə aparıb. Yarışın qalibi ispaniyalı Mario Mola olub.

Qeyd edək ki, idmançılarımız Tokio-2020 Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün iki il ərzində təsnifat turnirlərində iştirak edəcəklər. Bu müddət ərzində onlar dünya və Avropa çempionatları, dünya kuboku yarışları da daxil olmaqla çıxış etdikləri bütün turnirlərdə Olimpiadaya lisenziya xalları toplayırlar.

Güləş

## *Namiq Əliyev AGF-nin 1-ci vitse-prezidenti seçildi*

Mayın 10-da Gənclər və İdman Nazirliyində Azərbaycan Güləş Federasiyasının (AGF) seçki konfransı keçirilib.

Nazir Azad Rəhimov güləşçilərimizin mötəbər beynəlxalq turnirlərdə qazandıqları qələbələrdən söz açaraq, buyaxınlarda Avropa çempionatından 18 medalla vətənə qayıdan idmançılarımıza öz təşəkkürünü bildirib.

Pəhləvanlarımızla qürur duyduğunu bildirən Azad Rəhimov deyib: “Federasiyada yaşanan problemlərə baxmayaraq, idmançılarımızın uğurlu qələbələri işlərin düzgün şəkildə qurulduğunu bir daha sübut etdi. Növbəti sınaq, Gənclərin Buenos-Ayres-2018 Olimpiya Oyunları olacaq ki, bu istiqamətdə də uğurlu nəticələr əldə olunacağına inanırıq”.

Gənclər və idman naziri Dünya Güləş Birliyi (DGB) İcraiyyə Komitəsinin üzvü Namiq Əliyevin yenidən AGF-yə dəvət olunduğunu və onun yenidən qurumun 1-ci vitse-prezidenti vəzifəsində çalışacağını diqqətə çatdırıb. Nazir həm də Firdovsi Umudovun milli komandanın baş məşqçisi və federasiyanın vitse-prezidenti vəzifəsində çalışacağını da əlavə edib: “Namiq Əliyev güləş aləmində kifayət qədər tanınan və güləşimizin inkişafına öz töhfələrini vermiş insandır. Onun yenidən federasiyaya qayıdışı hər kəs tərəfindən çox müsbət qiymətləndirilib. Firdovsi Umudov komandamızın daim vətənə qələbələrlə qayıtmasında xüsusi zəhməti və xidməti olan insandır. Əminəm ki, federasiyanın vitse-prezidenti və milli komandanın baş məşqçisi olaraq bundan sonra da zəhmətini əsirgəməyəcək.”

Nazir çıxışının sonunda məşqlərin daha yüksək səviyyədə aparılması üçün bölgələrdə fəaliyyət göstərən Olimpiya İdman Komplekslərindən istifadə edilməsini, bununla yanaşı, idmançıların sağlam rəqabətdə qalib gəlmələri üçün AMADA ilə sıx çalışmalarını məsləhət görüb.

AGF-nin 1-ci vitse prezidenti Namiq Əliyev, milli komandanın baş məşqçisi və federasiyanın vitse-prezidenti Firdovsi Umudov və vitse-prezident Elcin Cəfərov gənclər və idman nazirliyinə güləşçilərə göstərilən dəstək üçün təşəkkürlərini bildiriblər. Federasiya rəsmiləri güləşçilərimizin Buenos-Ayres-2018 Olimpiya Oyunlarında və iki ildən sonra keçiriləcək Tokio-2020 Olimpiadasında da uğurlu nəticələr qazanacaqları üçün əllərindən gələn köməyi əsirgəməyəcəklərinə söz veriblər.

* * *

Dünən Rusiyanın paytaxtı Moskva şəhərində hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatına start verilib.

Azərbaycanı bu yarışlarda Mərkəzi Ordu İdman Klubunun (MOİK) idmançıları təmsil edirlər. Komandaya klubun rəisi, Beynəlxalq Hərbi İdman Şurasında (CISM) Azərbaycan nümayəndə heyətinin rəhbəri, polkovnik-leytenant Rəşad Quliyev rəhbərlik edir.

Sərbəst və yunan-Roma güləşçilərimizi yüksək səviyyəli yarışlara beynəlxalq dərəcəli idman ustası, Əməkdar məşqçi, hərbçilərin Olimpiya Oyunlarının qızıl medalçısı, hərbçilər arasında keçirilən XXX dünya çempionatının qalibi, mayor Nazim Əlicanov və beynəlxalq dərəcəli idman ustası, hərbçilər arasında Avropa və dünya birinciliklərinin dördqat çempionu, hərbçilər arasında II Olimpiya Oyunlarının gümüş mükafatçısı, mayor Taleh İsrafilov hazırlayıblar.

MOİK-in heyətində üç qadın güləşçimiz də mübarizə aparır. Qeyd edək ki, çempionatda iştirak edən komandamızın tərkibində dünya və Avropa çempionları, eləcə də Olimpiya Oyunlarının, respublika birinciliklərinin qalibi olan idmançılar əksəriyyət təşkil edirlər.

Yarışların idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakimlər Elman İsmayılov və Sədi Quliyev təmsil edirlər.

Dünya çempionatına mayın 20-də yekun vurulacaq.

* * *

Rusiya Federasiyası Dağıstan Respublikasının Kaspiysk şəhərində beşqat dünya çempionu Əli Əliyevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə ənənəvi beynəlxalq turnir keçirilib. Yığma komandamızın üzvləri turniri 3 (2 qızıl və 1 gümüş) medalla başa vurublar.

Hacımurad Hacıyev (70 kq), İbrahim Yusubov (79 kq) və Aslanbek Alborov (92 kq) finala qədər bütün rəqiblərindən üstün olublar. Həlledici görüşdə Hacımurad Hacıyev yerli idmançı Abdulqadji Maqomedovu gərgin keçən görüşdə üstələyərək qızıl medala sahib olub. Digər qızıl medalı yığmamıza finalda Özbəkistan idmançısı Rəşid Qurbanovu tam üstünlüklə məğlub edən İbrahim Yusubov qazandırıb. Yalnız final görüşündə məğlub olan Aslanbek Alborov isə gümüş medalla kifayətlənib.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakimlər Vaqif Zeynallı, Kamran Əliyev, Zaur Şərifov və Babək Allahverdiyev təmsil ediblər.

* * *

Bu gün Makedoniyanın Skopye şəhərində yeniyetmə güləşçilər arasında Avropa çempionatına start verilib. Yarışda ölkəmizi hər 3 güləş növü üzrə yığma komandamızın üzvləri təmsil edirlər.

Çempionatın proqramına əsasən, çempionatın ilk iki günündə sərbəst güləşçilər mübarizə aparırlar. Mayın 16-18-də qadın güləşçilər, mayın 18-20-də isə yunan-Roma güləşçiləri xalça üzərinə çıxacaqlar.

Böyük məşqçi Əsgərxan Novruzov, məşqçilər Vahid Məmmədov və Yaşar Əliyevin rəhbərlik etdiyi sərbəst güləş yığmasının heyətində 10 idmançımız yer alıb.




Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Vüqar Şükürov təmsil edəcək.

Qeyd edək ki, Yeniyetmələrin Avropa çempionatı bu ilin oktyabr ayında Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək Yeniyetmələrin III Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

# Gömrükçülər arasında ənənəvi futzal çempionatına yekun vurulub

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş futzal üzrə çempionatı başa çatıb. Yarışda Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan gömrük orqanlarının komandaları iştirak edib.***

Çempionatın final oyunu Dövlət Gömrük Komitəsinin mərkəzi aparatı və Naxçıvan MR Dövlət Gömrük Komitəsinin komandaları arasında keçirilib. Gərgin mübarizə şəraitində keçən və hər iki komandanın əzmkarlıq nümayiş etdirdiyi oyun Naxçıvan gömrükçülərinin 4-3 hesablı qələbəsi ilə başa çatıb.

Yarışın nəticələrinə əsasən, Naxçıvan MR Dövlət Gömrük Komitəsinin komandası I, Dövlət Gömrük Komitəsinin mərkəzi aparatının komandası II, Sumqayıt Baş Gömrük İdarəsinin komandası isə III yerə çıxıb.

Xatırladaq ki, aprelin 12-də start götürən çempionatda 4 mərhələ üzrə 2 qrupda (A və B qrupları) ümumilikdə 12 komanda mübarizə aparıb. Çempionatın təşkilində əsas məqsəd gömrük orqanlarında çalışan əməkdaşların sağlamlığının və fiziki hazırlığının inkişaf etdirilməsi, kütləviliyin təmin edilməsi olub.

Çempionatın mükafatlandırma mərasimində çıxış edən Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyev müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan söhbət açıb, uşaqların və gənclərin sağlam mühitdə böyüməsinə yönələn bu siyasətin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, idmançılarımızın beynəlxalq yarışlarda qazandığı qələbələrin bunun bariz nümunəsi olduğunu vurğulayıb.



Mərasimdə çıxış edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov Gənclər və İdman Nazirliyi adından yarışın təşkilatçılarına minnətdarlığını bildirib. Raqif Abbasov DGK tərəfindən gömrük işinin təşkili ilə yanaşı, idmana xüsusi önəm verilməsinin təqdirəlayiq olduğunu vurğulayıb.

Sonra DGK rəhbərliyi tərəfindən turnirin qaliblərinə və mükafatçılarına Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin kubok, diplom və medalları, eləcə də hədiyyələr təqdim edilib. Turnirdə fərqlənən 6 oyunçu müxtəlif nominasiyalarda diplomlarla təltif olunublar. Müslüm Hüseynov "ən əzmkar oyunçu", Emin Kərimov "ən texnikalı oyunçu", Orxan Rzayev "ən yaxşı yarımmüdafiəçi", Zaur Əsədov "ən yaxşı müdafiəçi", Rahil Tahirli "ən yaxşı qapıçı", Nizami Şərifov, Azad Hüseynov "ən yaxşı hakim" nominasiyalarının qalibi olublar.

Yarışların keçirilməsində əməkdaşlıq etdiklərinə görə Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasova, Azərbaycan Texniki Universitetinin İdman Kompleksinin direktoru Emin Zeynalova, həmin kompleksin direktor müavini Adıgözəl Rəcəbova xatirə medalları təqdim olunub.

Mərasimin yekununda Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev tərəfindən Arazxan Teymurov "ədalət prinsiplərinə sadiq məşqçi", Ramazan Ağayev "ədalət prinsiplərinə sadiq idmançı", Elçin Səmədli "ədalət prinsiplərinə sadiq hakim" nominasiyalarında mükafatlarla təltif ediliblər. AzƏOK tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədova xüsusi kubok təqdim edilib.

*Aysel Sultanova*

---

Azərbaycan Respublikasının Çexiya Respublikasındakı səfirliyinin təşkilatçılığı ilə Praqa şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş həvəskarlar arasında dördüncü ənənəvi beynəlxalq şahmat turniri təşkil olunub.

# Ulu öndərin xatirəsinə həsr olunmuş şahmat və qolf turnirləri keçirilib

Turnirdə Çexiya, Azərbaycan və digər ölkələrdən olan həvəskar şahmatçılar iştirak edib.

Turnirin açılışında Azərbaycanın Çexiyadakı səfiri Fərid Şəfiyev çıxış edərək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolundan, onun xalqımız qarşısındakı xidmətlərindən bəhs edib. Azərbaycanlı diplomat Praqada sözügedən turnirin ənənəvi şəkildə keçirildiyini vurğulayaraq bu yarışın növbəti illərdə də təşkil ediləcəyinə ümidvar olduğunu bildirib.

Turnirdə hakim qismində Beynəlxalq Şahmat Federasiyasının (FİDE) nümayəndəsi Aleksey Şimeçek iştirak edib.

Turnirin keçirildiyi salonda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr edilmiş kitab və jurnallar, habelə müvafiq broşürlər iştirakçılara paylanılıb. Yarış başa çatdıqdan sonra qaliblər müvafiq medal və hədiyyələrlə təltif ediliblər.

Çexiyanın Karlovı Varı şəhərində isə Azərbaycanın fəxri konsulluğunun təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr edilmiş qolf turniri keçirilib. Turnirin rəsmi hissəsində Azərbaycanın Çexiyadakı səfiri Fərid Şəfiyev iştirak edib.

# Yeniyetmə basketbolçularımız Daşkənddən qələbə ilə qayıdıblar

Yeniyetmə basketbolçulardan ibarət Azərbaycan yığması Özbəkistanın paytaxtı Daşkənddə keçirilən beynəlxalq turnirin qalibi olub. Millimiz sonuncu turda yerli "Səmərqənd" komandası ilə qarşılaşıb. Görüş basketbolçularımızın 75:41 hesablı qələbəsi ilə başa çatıb. Turnirdə ke-



çirdiyi digər görüşlərdə millimiz yerli "Çirçik" komandasına 71:51, "UzliDEP" klubuna 82:51, Qırğızıstanın yeniyetmələrdən ibarət yığmasına isə 84:48 hesabı ilə qalib gəlib.

---

**Redaksiyanın poçtundan**

## Şahmat üzrə açıq birinciliyin qalibləri müəyyənləşdi



"Neftçi İdman Klubu"nun 2004-2005, 2006-2007, 2008-2009, 2011-ci il təvəllüdlü və daha kiçikyaşlı idmançıları arasında şahmat üzrə açıq birinciliyi keçirilib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş turnir Lökbatan qəsəbəsində yerləşən Qaradağ Təlim-İdman Bazasında təşkil edilib. Yarışda 47 idmançı qalib adı uğrunda mübarizə aparıb.

2004-2005-ci il təvəllüdlülər arasında Nicat Fərzəliyev qalib adını qazanıb. İlham Ağayev 2-ci, Elvin Haqverdiyev isə 3-cü yeri tutub. 2006-2007-ci il təvəllüdlü şahmatçıların yarışında Cəbrayıl Zərbəliyev liderliyə yüksəlib. Əliqismət Hüseynzadə və Üzeyir Əlizadə isə müvafiq olaraq 2-ci, 3-cü yerləri bölüşdürüblər. Nuray Musayeva 2008-2009-cu il təvəllüdlülərin mübarizəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Tamerlan İbrahimli 2-ci, Fidan Aşırlı isə 3-cü pillədə qərar tutub. 2011-ci il təvəllüdlü və daha kiçik yaşlı idmançılar arasında Ayan Mirzəzadə bütün rəqiblərindən üstün olub. Aylin Mütəllimzadə 2-ci, Ahu Şahmalıyeva isə 3-cü yerə çıxıb.

Turnirin qalib və mükafatçılarına "Neftçi İdman Klubu" tərəfindən diplom və xatirə hədiyyələri təqdim olunub.

*"Neftçi İdman Klubu"*
*İctimai Birliyinin*
*mətbuat xidməti*

## DİN-in əməkdaşı növbəti dəfə Avropa çempionu oldu

Buyaxınlarda Avropa Budo Döyüş Növləri Federasiyasının təşkilatçılığı ilə Moldovanın paytaxtı Kişinyov şəhərində Budo üzrə Avropa çempionatı keçirilib. Çempionatda ölkəmizin yığma komandası da iştirak edib.

Millimizin heyətində Daxili İşlər Nazirliyinin üç əməkdaşı da iştirak edib. DİN Polis Akademiyasının Fiziki Hazırlıq Kafedrasının rəisi, polis mayoru, dəfələrlə dünya və Avropa çempionu Həsən Əliyev ən ağır çəkidə keçirdiyi bütün görüşləri qələbə ilə başa vuraraq növbəti dəfə Avropa çempionu tutuluna layiq görülüb. DİN Əlahiddə Çevik Polis Alayının əməkdaşı, polis serjantı İbrahim Məmmədov çəkisi 66 kq-dək idmançılar arasında, Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşı, polis serjantı Xəyal Cəmilbəyli isə çəkisi 85 kq-dək olan budoçular arasında çempionatın qızıl medalına sahib olublar.

*Xəyalə Məmmədova,*
*DİN Mətbuat Xidmətinin əməkdaşı*

---

# Formula-1

## Azərbaycan Qran-Prisinin fəal 5 könüllüsü Monakoya səfər edəcək

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) builki Formula-1 Azərbaycan Qran-Prisi ilə əlaqədar görülən təşkilatçılıq işlərində yüksək fəallığı ilə seçilən beş könüllünü - Nigar Pənahovanı, Hikmət Əlizadəni, Rəna Göyüşovanı, Şəms Balayevanı və Tural Özbəkzadəni mayın 25-27-də keçiriləcək Monako Qran-Prisinə göndərəcək.

Müsabiqənin keçirilməsində əsas məqsəd gənclər arasında könüllülük fəaliyyətinə maraq oyatmaq və Formula-1 yarışında yüksək fəallığı ilə fərqlənən gəncləri mükafatlandırmaqdır.

BŞH-nin insan resursları və işçi qüvvəsi şöbəsinin rəhbəri İranə Əhmədova qaliblərin nəzəri və praktiki yoxlamalar əsasında müəyyənləşdirildiyini bildirərək deyib: "Bakıda Formula-1 yarışı zamanı 3 min könüllü xidmət göstərib və onların arasından 260 nəfər xüsusilə fərqlənib. Daha sonra bu könüllülər arasında yarışa hazırlıq çərçivəsində təşkil olunmuş təlim və seminarlara dair nəzəri imtahan keçirilib. Ən yüksək bal toplayan 5 könüllü Monako Qran-Prisinə səfər etmək imkanı əldə edib.

Ümumilikdə bütün könüllülərimiz yarış ərəfəsində yüksək xidmət ortaya qoyublar. Fürsətdən istifadə edərək hər bir könüllümüzə şirkətimiz adından dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, burada qazanılan zəngin təcrübə könüllülərimizə gələcək peşəkar fəaliyyətlərində böyük uğurlara yol açacaq".

Monakoya səfər edəcək könüllülərin səyahət, qonaqlama və yarışda iştirakla əlaqədar bütün xərcləri əməliyyat şirkəti tərəfindən ödəniləcək.

Müsabiqədə ilk onluqda yer alan digər könüllülər - Aytac Qasımova, Xumar Cəmilli, Nuriyyə Nurəhmədova, Svetlana Məmmədova və Elnur Əbilhəsənov da qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

* * *

Formula-1 və "Fanatics" şirkətləri arasında ticarət sazişi imzalanıb.

Lisenziyalı idman ticarətində dünya lideri olan "Fanatics" şirkəti 2018-ci ildən etibarən Qran-Pri həftəsonlarında və onlayn şəkildə yarışın eksklüziv ticarət tərəfdaşı olacaq. Bu əməkdaşlığa imza atmaqla Formula-1 istehlak mallarının artımı istiqamətində böyük addım atmaq niyyətindədir. Şirkətin məqsədlərindən biri də Qran-Pri zamanı, onlayn, eləcə də telefon vasitəsilə alış-veriş edən yarış azarkeşləri üçün fərqli satış kanalları yaratmaqdır.

"Fanatics" şirkəti ticarətin həcmini artıraraq, Formula-1, həmçinin Formula-1 üzrə dünya çempionatında iştirak edən komandaların premium məhsullarının və hər Qran-Pri üçün xarakterik olan əşyaların satışını həyata keçirəcək.

Formula-1-in kommersiya şöbəsinin icraçı direktoru Şon Breçes əməkdaşlıqla bağlı deyib: "Bütün Qran-prilərdə apardığımız araşdırmalardan məlum oldu ki, azarkeşlər daha səmərəli alış-veriş etmək istəyirlər. İnanırıq ki, bu əməkdaşlıq Qran-Pri zamanı azarkeşlərin növbəsiz şəkildə daha çox çeşidli və keyfiyyətli alış-veriş etmələrinə şərait yaradacaq. Əməkdaşlığın əsas müsbət nəticəsi isə istər Formula-1 brendi altında, istərsə də komandaların təklif etdiyi məhsulların satışında olacaq artımdır".

* * *

"Williams" komandasının F1 "Azərbaycan Qran-Prisində bir neçə insidentə təkrar baxılması barədə müraciətinə stüardlardan rədd cavabı gəlib. Bu, yarış kollektivində şəraitin qiymətləndirilməsinə təsir edəcək prinsipial cəhətdən yeni və bugünədək bilinməyən faktların olmamasıdır.

Hakimlər ispaniyalı Fernando Alonsonun əzilmiş "McLaren"də qaraja qayıtmasını təhlükəsiz və qaydalara zidd olmayan hərəkət hesab ediblər. "Haas"ın danimarkalı pilotu Kevin Maqnussenin on saniyəlik cəriməsi isə onun keçmişdəki analoji insidentləri və sanksiyaları nəzərə alınmaqla, hakimlər tərəfindən adekvat cəza kimi qiymətləndirilib.



Hakimlər ilk dairədə rusiyalı Sergey Sirotkin, Fernando Alonso və alman Niko Hülkenberq ("Renault") arasında baş vermiş insidentə də yenidən baxmaqdan imtina ediblər. Onlar bunu "Williams"ın göstərilən vəziyyətlə bağlı reqlamentdə ayrılmış müddətdə etiraz etməməsi ilə əlaqələndiriblər.

* * *

Mayın 10-da Mayami şəhərinin hakimiyyət orqanlarının qarşısında "Liberty Media" ilə Formula 1 avtoyürüşlərinin keçirilməsi barədə danışıqları davam etdirib-etdirməməyi müəyyənləşdirmək məsələsi dururdu. Elə həmin axşam məlum olub ki, ideya yekdilliklə dəstəklənib.

Səsvermənin nəticələrinə əsasən dərc edilmiş qətnamədə deyilir: "Şəhər komissiyasının qərarına müvafiq olaraq, Formula 1-i Mayamiyə gətirmək və 2019-2028-ci illərdə Qran-Pri yarışlarının Mayamidə keçirilməsi səyləri dəstəklənib. Siti-menecerə Mayami şəhəri ilə Formula 1 arasında saziş barədə lazımi danışıqlar aparılması tapşırılıb".

Formula 1-in kommersiya direktoru Şon Bratçes deyib: "Biz Formula 1 mərhələsinin Mayamidə keçirilməsinin qabaqcadan bəyənilməsi barədə aparılan səsvermədə yekdil dəstək almasına sevinirik. Bu, hələ prosesin başlanğıcıdır. Biz yekun razılığa nail olmaq üçün bütün maraqlı tərəflərlə, şəhərin və limanın hakimiyyət orqanları, "Bayfront Park Management Trust" və digərləri ilə dərhal danışıqlara başlayacağıq. Formula 1 Mayami mərhələsi - planetin ən yaxşı avtoyürüşünü dünyanın ən tanınmış şəhərlərindən birində nümayiş etdirmək üçün fantastik fürsətdir".

---

*Qaydasız döyüş*

## *Bakıda keçirilən WFCA-48 beynəlxalq turniri uğurla yekunlaşıb*

Bakı Olimpiya Stadionunda (BOS) WFCA-48 beynəlxalq turniri keçirilib. Bakı Olimpiya Stadionu, "Olimpiya" klubu və "Axmat" döyüş klublarının təşkilatçılığı ilə keçirilən yarışda Azərbaycan, Rusiya, Argentina, ABŞ, Qırğızıstan, Braziliya, Ukrayna, Niderland, Qazaxıstan, Tacikistan və Dominikan Respublikasının MMA döyüşçüləri öz döyüş bacarıqlarını nümayiş etdiriblər. WFCA-48 turniri çərçivəsində azarkeşlər təmsilçilərimizdən Mehman Məmmədov, Bəxtiyar Arzumanov, Aqşin Babayev və Tofiq Musayevin döyüşlərini izləyiblər. Ümumilikdə yarışda 14 döyüş keçirilib. Turnirin super-döyüşü"Axmat" klubunun çempionu Məhəmmədrəsul "Frodo" Xasbulayev və Salman Camaldayev arasında olub. Turnir çərçivəsində keçirilən maraqlı digər döyüşdə təmsilçimiz Tofiq Musayev rusiyalı Marif Pirayev (Rusiya) üz-üzə gəlib. Tofiq Musayev rəqibinə1-ci raundda texniki nokautla qalib gəlib.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# "Məhsul" idman cəmiyyətində milli idman oyunlarının tarixi ənənəsi qorunur

Azərbaycan qədim idman ənənələri olan ölkədir. Bu ənənəni yaşatmaq, respublikanın rayonlarında, ucqar kəndlərində, bir sözlə, ölkənin hər bir yerində idmanı inkişaf etdirmək üçün geniş şəbəkəyə malik olan, çoxşaxəli fəaliyyət göstərə biləcək idman cəmiyyətinin yaradılması tələb olunurdu. Belə bir idman cəmiyyəti 1951-ci ildə



"Kolxozçu" adı altında yaradıldı. Fəaliyyətə başlayan cəmiyyət təxminən 8-9 il sonra "Məhsul" Kənd Könüllü Həmkarlar Kooperativ İdman Cəmiyyəti Respublika Şurası adlandırıldı. Məhz 50-ci illərin sonu "Məhsul"un fəaliyyətinin gücləndirilməsi ilə əlamətdar oldu. Bir çox rayonlarda idman qurğuları, məktəbləri istifadəyə verildi. Kənd sakinləri, xüsusilə gənclər arasında bədən tərbiyəsinə, idmana maraq gücləndi. 1980-ci illərdə Azərbaycanın iqtisadiyyatının inkişafı "Məhsul"un da fəaliyyətinin genişləndirilməsinə imkan yaratdı. Respublika Həmkarlar İttifaqları Şurasının maliyyə yardımı nəticəsində yerlərdə idman qurğuları şəbəkəsi genişləndirildi. Həmin illərdə cəmiyyətin nəzdində Şamaxı, Tovuz, Qazax şəhərlərində idman kompleksləri, Masallı, Kürdəmir, Sabirabad və Cəlilabadda stadionlar, Ağdamda, Şəkidə atçılıq bazaları və şahmat məktəbləri tikilib istifadəyə verildi. "Məhsul"un idman qurğuları şəbəkəsi ən ucqar kəndlərimizdən paytaxta qədər bütün respublikanı əhatə edirdi. Bu qurğularda cəmiyyət minlərlə kənd zəhmətkeşlərinin, kənd təsərrüfatı sahəsində çalışan insanların sağlamlığının möhkəmləndirilməsi üçün səmərəli işlər görmüş, respublika əhalisi arasında bədən tərbiyəsinin kütləviliyinin təmin edilməsində xüsusi rol oynamışdır. Bu illər ərzində "Məhsul" idman cəmiyyətinin idmançıları dünya, Avropa və beynəlxalq yarışlarında uğurla çıxış edərək mükafatçılar sırasında lyer tutmuşlar. Fəaliyyət göstərdiyi bu illər ərzində "Məhsul" İC peşəkar idmanın inkişafına da öz töhfələrini verib. İkiqat Olimpiya çempionu və iki dəfə gümüş mükafat qazanan voleybolçu İnna Rıskal, cüdo üzrə Olimpiya çempionu Nazim Hüseynov, 7 dəfə dünya çempionatının qalibi olan samboçu Ceyhun Məmmədov, məşhur şahmatçı Aynur Sofiyeva, SSRİ birinciliyinin mükafatçısı Aslan Ağayev və digər məşhur idmançılar "Məhsul" İC-in yetirmələridir.

## Milli oyunlarımız özündə mənəvi dəyərləri əks etdirir

2016-ci ildə "Məhsul" idman cəmiyyətinin yaradılmasının 65 ili tamam oldu. Bu münasibətlə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının 28 noyabr 2016-cı il tarixli qərarı ilə cəmiyyətin bir qrup işçiləri fəxri fərmanla təltif edildi.

Milli mənəviyyatımızın dirçəliş mərhələsində irsimizin yaşamasına bəzən biganəlik göstərdiyimiz bir çox cəhətlərdən biri də minillik tarixi olan milli oyunlarımızdır. İllər boyu bir çox müsbət fiziki kefiyyətlər aşılayan, məzmunca sağlamlıq, mahiyyətcə mənəvi dəyərləri tərbiyə edən oyunlarımız ("Dirədöymə", "Dədəboyu", "Çalağançardağı", "Çilingağac", "Ənzəli", "Artırma", "Xıy-Xıy" və s.) XX əsrin 50-ci illərindən sonra unudulmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Milli irsimizi yaşadan oyunlarımızın taleyi belə müşkül vəziyyətdə qala bilməzdi. Odur ki, Həmkarlar İttifaqı Bədən Tərbiyəsi-İdman Cəmiyyəti milli oyunlarımızı dirçəldib, onları yenidən məişətimizə qaytarmağı qərara aldı. Lakin bu işdə güclü təbliğat və tövsiyələr kifayət deyildi. Bu məsələdə ən səmərəli yol oyunların vahid qaydalarını hazırlamaq və bədən tərbiyəsi kollektivlərinin iş planına daxil etmək, spartakiadanı keçirmək idi. Məqsədə nail olmaq üçün 1989-cu ildə "Məhsul" KKİC-i 5 oyunun ("Dirədöymə", "Dədəboyu", "Çilingağac", "Çalağancardağı", "Xıy-Xıy") qaydalarını hazırladı və onları sınaqdan keçirmək üçün seminarlar keçirdi. Beləliklə, milli oyunlarımızın yenidən xalqın yaddaşına yazılması bərpa olundu. Hazırda "Məhsul" İdman Cəmiyyəti bölgələrində iştirakı ilə milli oyunlamız üzrə yarışlar təşkil edir.

## "İdmançılarımızın fiziki hazırlığını da diqqət mərkəzində saxlayırıq"

Buyaxınlarda "Məhsul" Kənd Könüllü Həmkarlar İdman Cəmiyyətinin Respublika Şurasının sədri, Əməkdar məşqçi, "Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi", "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" Rasim Əliyevlə görüşdük. Təcrübəli mütəxəssislə söhbətimiz "Məhsul" İC-in fəaliyyəti, gələcək planlar, gənclərin fiziki tərbiyəsinin və milli idman oyunlarının inkişafı barəsində oldu.

Əvvəlcə "Məhsul" idmançılarının uğurlarından danışan müsahibimiz ölkəmizdə tarixi ənənələri olan idman növlərinin də cəmiyyət tərəfindən inkişaf etdirildiyini qeyd etdi.

"Ölkəmizdə bədən tərbiyəsi və idmanın, o cümlədən milli idman növlərinin geniş formada inkişaf etdirilməsi ümummilli liderimiz Heydər Əliyevin tövsiyələrinə uyğun olaraq bu gün də uğurla həyata keçirilir. Gənc nəsli Azərbaycan idmanının tarixi ilə tanış etmək, qədim xalq idman növlərinin yenidən populyarlığına nail olmaq məqsədilə "Məhsul" Kənd Könüllü Həmkarlar Kooperativ İdman Cəmiyyəti Respublika Şurası 1990-cı ildən başlayaraq hər il milli idman növləri üzrə respublika spartakiadası keçirir. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin bədən tərbiyəsi və idmanın inkişafının daha da sürətləndirilməsi, əhalinin bütün təbəqələrinin kütləvi surətdə idmanla məşğul olmasının təmin edilməsi haqqındakı göstəriş və tələbləri, milli idman oyunlarının yenidən bərpası və inkişaf etdirilməsinə əsas verir. Son illərdə idmançılarımızın Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında uğurlu çıxışları, eyni zamanda ölkəmizdə kütləvi bədən tərbiyəsi və idmanın inkişafı yönündə aparılan dövlət siyasətinin və bu sahədə göstərilən dövlət qayğısının qanunauyğun nəticəsi kimi qəbul edilir.

"Məhsul" KKHKİC-nin Respublika Şurası tərəfindən kənd zəhmətkeşlərinin və onların ailə üzvlərinin bədən tərbiyəsi və idman tədbirlərinə cəlb edilməsi sahəsində konkret tədbirlər həyata keçirilib. Biz bu gün milli idman oyunlarını inkişaf etdirməklə yanaşı, idmançılarımızın fiziki hazırlığını da diqqət mərkəzində saxlayırıq. Təmsilçilərimiz mütəmadi olaraq beynəlxalq və ölkədaxili yarışlarda, həmçinin fiziki hazırlıqlarını möhkəmləndirmək üçün təlim-məşq toplanışlarında iştirak edirlər. 2013-2017-ci illər ərzində cəmiyyətimizin idmançıları 184 beynəlxalq və Respublika yarışlarında iştirak ediblər. Bu illər ərzində dünya və Avropa yarışlarında, eləcə də beynəlxalq və respublika çempionatlarında çıxış edən idmançılarımız 96 qızıl, 53 gümüş və 68 bürünc medal qazanıblar.

Qeyd etmək istəyirəm ki, "Məhsul" idman cəmiyyətində fəaliyyət göstərən RK UGİM-də cüdo idman bölməsi açılıb. Hazırda rayonlarda milli idman növləri üzrə kənd idmançılarının XXVIII Respublika Spartakiadasının final yarışına vəsiqə qazanmaq üçün yarışlar keçirilir", - deyə Rasim Əliyev bildirdi.

## Dəyişən illər, fərqli rəqəmlər...

Bu il "Məhsul" İC-in yetirmələri 12 müxtəlif yarışda iştirak ediblər. Bu yarışlarda cəmiyyətin 158 idmançısı qüvvəsini sınayıb. Qazanılan nəticələr isə 4 qızıl 11 gümüş və 4 bürünc medal olub.

Bu ilin fevral ayında "Məhsul" idman cəmiyyətinin təmsilçiləri boks üzrə təşkil olunan yeniyetmələr arasında Azərbaycan birinciliyində qüvvələrini sınayıblar. Cəmiyyətin yetirmələrindən Mehman Quliyev 75 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. "Məhsul" İC-in digər yetirməsi Sənan Əhmədov isə çəkisi 48 kq olan boksçuların yarışında II yeri tutaraq gümüş medala sahib çıxıb.

Mart ayında kiçikyaşlı yeniyetmə boksçular arasında təşkil olunan Azərbaycan birinciliyi də "Məhsul" idmançıları üçün uğurlu olub. Belə ki, bu idman növü üzrə keçirilən yarışlarda Rəvan Quliyev (68 kq) bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Cəmiyyətin digər boksçuları İbrahim Adişov (76 kq) ikinci, Emin Tağıyev isə (-52 kq) üçüncü yerə layiq görülüb.

Bu il həmçinin "Məhsul" idman cəmiyyətinin yetirmələri boks idman növü ilə yanaşı, atletika yarışlarında da kifayət qədər uğurlu nəticələr əldə ediblər. Mart ayında təşkil olunan atletikanın kross qaçışı üzrə Bakı şəhər birinciliyində cəmiyyətin yetirməsi Brilyant Bayramova birinci yeri tutub. Nail Rzayev və Aişə Qurbanova isə gümüş medala layiq görülüb.

Əldə olunan nəticələri yüksək qiymətləndirən Rasim müəllim növbəti illərdə də bu uğurların davamını gətirmək üçün bütün bacarıqlarını səfərbər edəcəklərini bildirdi. Onun sözlərinə görə illər ərzində çəkilən zəhmət və "Məhsul" idman cəmiyyətinə göstərilən diqqət və qayğı hədər getməyib. ""Məhsul" Kənd Könüllü Həmkarlar Kooperativ İdman Cəmiyyəti Respublika Şurası, onun şəhər və rayon şuraları Kənd Təsərrüfatı Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası, Həmkarlar İttifaqı İdman Təşkilatları İctimai Birliyi ilə birgə bədən tərbiyəsi və idmanın inkişafı və idmançıların ustalıqlarının yüksədilməsi sahəsində müəyyən işlər həyata keçirib. Hazırda Respublika şurası öz ətrafında 382 bədən tərbiyəsi kollektivini birləşdirir. Müxtəlif idman bölmələrində və sağlamlıq istiqamətli qruplarda 17 min 550 nəfər məşğul olur ki, onlardan 329 nəfəri qadındır. Respublika şurasının və onun strukturuna daxil olan şəhər və rayon şuralarının nəzdində fəaliyyət göstərən idman növləri üzrə bölmələrdə isə 2075 yeniyetmə və gənc müntəzəm idman məşqlərinə cəlb olunub. Biz bu illər ərzində spartakiadaların və müxtəlif idman növləri üzrə yarışların təşkilinə və keçirilməsinə nail olmuşuq. Spartakiadaların və kütləvi idman tədbirlərinin təşkili və keçirilməsində Gənclər və İdman Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası və "Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları" İctimai Birliyi təşkilatımıza daimi dəstək olub. Eyni zamanda onu da qeyd edim ki, hər ilin sonu Kənd Təsərrüfatı və Qida Sənayəsi İşçiləri Həmkarlar İttifaqı Federasiyasının rəhbərliyi tərəfindən "Məhsul" İC-in dünya və Avropa çempionatlarında fərqlənən idmançılarına və onların məşqçi-müəllimlərinə qiymətli hədiyyələr və pul mükafatları təqdim edilir", - deyə o bildirdi.

## "Məhsul"un həndbolçuları uğurları ilə diqqət çəkir

Məlumat üçün bildirək ki, müsahibimiz Rasim Əliyev 1990-1995-ci illərdə kişilərdən ibarət həndbol üzrə milli yığma komandanın baş məşqçisi vəzifəsində çalışıb. Həmin dövrdə bu komanda bir sıra ümumittifaq və beynəlxalq turnirlərin qalibi və mükafatçısı olub. O, bu illər ərzində 20-dək idman ustası hazırlayıb.

Bacarıqlı baş məşqçinin komandası 1991-ci ildə İran İslam Respublikasında təşkil olunan "Fəcr" turnirinin qalibi adını qazanıb. Elə həmin il Türkiyədə keçirilən Avropa Beynəlxalq "Bosfor" kuboku turnirinin bürünc mükafatına da layiq görülüb. 1990-1995-ci illərdə Azərbaycan çempionu və Azərbaycan kuboklarının qalibi olub. Təcrübəli mütəxəssis İran İslam Respublikasının kişilərdən ibarət həndbol üzrə yığma komandasının da baş məşqçisi olub. Onun rəhbərlik etdiyi Azərbaycanın kişilərdən ibarət həndbol komandası 2003-cü ildə Maltada, 2005-ci ildə isə İslandiyada keçirilən Avropa Həndbol Federasiyasının "Celenc Trofi" kubokunun gümüş medalını qazanıb.

Müsahibimiz söhbət zamanı keçmiş həndbolçu kimi, "Məhsul" həndbolçularının uğurlu çıxışlarına da toxundu. Rasim müəllim bu barədə dedi: "Bildiyiniz kimi, həndbol vaxtilə ölkəmizdə çox sevilən və məşhur idman növlərindən biri olub. İdmanın bu növü üzrə Olimpiya çempionlarımız, həmçinin müxtəlif yarışların qalib və mükafatçıları var. Lakin uzun müddət həndbol idman növündə durğunluq dövü oldu.Yeni komandalar yaradılmır, mövcud klubların da vəziyyəti ürəkaçan deyildi. Federasiyada rəhbər dəyişikliyindən sonra həndbol idmanında da sürətli inkişaf prosesi başladı. 2016-cı ilin dekabrında "Azəravtoyol" ASC-nin (hazırda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin) sədri Saleh Məmmədov Azərbaycan Həndbol Federasiyasının prezidenti seçildi.

Yeni dəyişiklikdən sonra qısa müddətdə həndbol idmanında böyük irəliləyiş baş verdi. Həndbolun inkişafı üçün maksimum əlverişli şərait yaradıldı. Artıq əminliklə demək olar ki, bu gün Azərbaycan həndbolu yenidən özünün inkişaf dövrünü yaşayır. Təbii ki, bu keçmiş həndbolçu kimi məni də sevindirir. Uzun illərdir ki, həndbol üzrə Azərbaycan çempionatı keçirilmirdi. Yeni dəyişikliklərdən sonra ölkə çempionatı yenidən təşkil olunmağa başladı. 2017-ci ildə kişi həndbolçularından ibarət "Məhsul" komandası yaradıldı. Sevindirici haldır ki, "Məhsul" həndbolçuları da uzun müddətdən sonra təşkil olunan ölkə çempionatlarında fəal iştirak edərək mükafatçılar sırasında yer almağı bacardılar. Qısa zaman ərzində yaranmasına baxmayaraq ötən il "Məhsul" komandası ölkə çempionatının qızıl medalına layiq görüldü. Bu il də həndbolçularımız uğurlu çıxışları ilə bizi sevindirdilər. Komandamız yarışda gümüş medala sahib çıxdı. Təbii ki, bu nəticələri qısa zaman ərzində yaranan komandamız üçün uğurlu hesab etmək olar. İnanıram ki, "Məhsul" İC-in həndbolçuları qarşıdakı illərdə də uğurlu çıxışları ilə bizi sevindirəcəklər".

## Kütləvilik idman növlərinin inkişafına zəmin yaradır

Rasim müəllim bizimlə söhbətində həmçinin qeyd etdi ki, istənilən idman növünün inkişafında təbliğatın böyük rolu olduğunu diqqətə çatdırdı. "İstənilən idman növünün inkişafında təbliğat əvəzsiz rola malikdir. Ölkəmizdə təşkil olunan I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və müxtəlif beynəlxalq idman tədbirləri ölkəmizdə gənc nəslin idmana marağını artırır. Təbii ki, bu yarışları həm televiziya, həm də arenalardan izləməyə gələn azarkeşlər atletlərin uğurlu çıxışlarından həvəslənərək özlərini onlara bənzətməyə çalışır, müasir Olimpiya İdman komplekslərinə üz tuturlar. Diqqətlə fikir versək görərik ki, istər Olimpiya Oyunlarından, istərsə də ölkəmizdə təşkil olunan beynəlxalq yarışlardan sonra neçə-neçə Nazim Hüseynov, Namiq Abdullayev, Fərid Mansurov, Elnur Məmmədli kimi idmançılar yetişməyə başladı. Bu ölkəmizin və idmanımızın uğurudur. İnanıram ki, qarşıdakı illərdə Azərbaycan idmançıları öz iradəsi, fiziki hazırlığı və parlaq qələbələri ilə ölkəmizin adını daha da yüksəklərə qaldıracaqlar. Söhbətimizin əvvəlində qeyd etdiyim kimi, milli idman oyunları da bir müddət əvvəl unudulmağa başlamışdı. Lakin biz bu tarixi ənənələri zəngin olan idman oyunlarını yenidən dirçəltmək məqsədi ilə bölgələrdə spartakiadalar təşkil etdik. İl ərzində müxtəlif zona yarışlar təşkil olunur. Cənub zonası üzrə Lənkəran, Masallı, Biləsuvar, Aran zonası üzrə Şamaxı, Kürdəmir və digər rayonlarda yarışlar keçirilir. Bu yarışlarda fərqlənən idmançılar final mərhələsində mübarizə aparırlar. Yarışların final mərhələlərində 400-ə yaxın idmançı gücünü sanayır. Bu da bölgələrdə milli idman oyunları üzrə kütləviliyin kifayət qədər olduğunun göstəricisidir. Onu da qeyd edim ki, bu ilki yarışların final mərhələsi oktyabr ayında Sabirabad Olimpiya İdman Kompleksində təşkil olunacaq. Artıq 67 ildir ki, "Məhsul" idman cəmiyyəti ölkəmizdə gənc nəslin fiziki cəhətdən sağlam böyüməsinə, istedadlı idmançıların yetişdirilməsinə xidmət edir. Cəmiyyətin idmançıları respublika bədən tərbiyəsi təşkilatının layiqli üzvləri kimi öz uğurlu çıxışları ilə Azərbaycanın idman şərəfini həmişə ləyaqətlə qoruyublar. Geri dönüb ötən illərə nəzər salanda cəmiyyətin onlarca dünya, Avropa və digər mötəbər beynəlxalq yarışlarda medallar qazanmış idmançıları gözümüzün önünə gəlir. "Məhsul" un atletika üzrə mərhum idmançılarından biri, Böyük Vətən Müharibəsinin iştirakçısı, ölkəmizdə bədən tərbiyəsi və idman hərəkatında xüsusi xidmətləri olan İbadulla Həsənov gənclərə nümunə idi. Onun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdi. Veteran idmançı Respublikanın Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi fəxri adına layiq görülmüşdü. İbadulla Həsənov 1980-ci ildə Moskva şəhərində keçirilmiş Olimpiya Oyunlarında hakimlik etmiş, atletika üzrə beynəlxalq dərəcəli hakim adını almışdı. Onun rəhbərliyi altında uzaq və orta məsafələrə qaçan bir çox yüksək səviyyəli idmançılar hazırlanmışdı. Eyni zamanda, "Məhsul" idman cəmiyyətinin veteran atletləri - dəfələrlə Azərbaycan çempionları, SSRİ mükafatçıları olmuş Habil və Şamil İsmayılovların gənc nəslin idmana cəlb olunmasında böyük xidmətləri var. Belə insanlar respublikamızda idmanın kütləviliyi üçün əlindən gələni ediblər. "Məhsul" idman cəmiyyətinin ən böyük uğurlarından biri ötən əsrin səksəninci illərində keçirilmiş ümumittifaq kənd idman oyunları olmuşdur. Bu oyunlarda "Məhsul" cəmiyyətini təmsil edən güləşçilər, boksçular komanda hesabında ümumittifaq miqyasda birinci yeri tutublar. Kənd oyunlarında digər idman növlərində də respublikamızı təmsil edənlər yüksək nəticələr qazanıblar", - deyə Rasim Əliyev bildirdi.

"Məhsul" Kənd Könüllü Həmkarlar Kooperativ İdman Cəmiyyəti Respublika Şurası 67 ildir ki, ölkəmizdə idmanın inkişafına xidmət edir. Bu idman ocağının yetirmələri qarşıdakı aylarda bir sıra mühüm yarışlarda güclərini sınayacaqlar. İnanırıq ki, "Məhsul" idman cəmiyyətinin atletləri gələcək yarışlarda da uğurlu çıxış edərək fəxri kürsüdə yer almağı bacaracaqlar.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Ümummilli liderin xatirəsinə həsr olunmuş turnirlər keçirilib



Mayın 9-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyətində yeniyetmə və gənclər arasında ciu-citsu üzrə birincilik keçirilib.

Tədbirdə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Çıxışlarda ulu öndər Heydər Əliyevin idmana və idmançılara göstərdiyi yüksək diqqət və qayğıdan danışılıb. Bildirilib ki, müstəqilliyin əvvəllərində ölkəmizdə bütün sahələrdə yaşanan tənəzzül və böhran ümummilli liderin hakimiyyətə qayıdışından sonra qısa müddətdə dinamik inkişafla əvəzlənib. Bu dövrdə həyata keçirilən mühüm tədbirlərin nəticəsi olaraq idmançılarımız parlaq qələbələrə imza atıb, üçrəngli bayrağımız beynəlxalq arenalarda dalğalanmağa başlayıb.

DİN İdman Cəmiyyətinin əməkdaşı, polis baş leytenantı Elşən İbişovun yetirmələri yüksək fiziki və texniki bacarıq nümayiş etdiriblər.

Cəmiyyətin idman təlimi şöbəsinin rəisi, polis polkovnik leytenantı İlyas Siracov bildirib ki, tarix boyu insanlarda Vətənə məhəbbət, milli qürur hissləri, xeyirxahlıq aşılayan idman güclü təsir imkanına malik olmaqla yanaşı dövlətin hərtərəfli inkişafında, dünya miqyasında tanınmasında mühüm rol oynayan təbliğati-siyasi vasitədir.

Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə keçirilən bu yarışlarda iştirak edən yeniyetmə və gənclər gələcəkdə də sağlam idman ənənələrinə sadiq qalmalı, dövlətimizi, Vətənimizi layiqincə təmsil etməlidirlər.

Çıxışlardan sonra yarışlara start verilib.

Birincilikdə dörd komandanın heyətində müxtəlif çəki dərəcələri üzrə 80-dək idmançı gücünü sınayıb.

Sonda qaliblərə kubok, diplom və medallar təqdim olunub.

* * *

Silsilə tədbirlər çərçivəsində Daxili İşlər Nazirliyinin idman cəmiyyətində cüdo üzrə yeniyetmələr və gənclər arasında da növbəti turnir keçirilib.



Birincilikdə üç yaş qrupunda müxtəlif çəki dərəcələri üzrə 140-a yaxın idmançı gücünü sınayıb. DİN İdman Cəmiyyətinin cüdo bölməsinin baş məşqçisi Zaur Kərimovun yetirmələri yüksək fiziki və texniki bacarıq nümayiş etdiriblər.

Yarışları Z.Kərimov, E.Bağırov və E.Məmmədov idarə ediblər.

* * *

Pirşağıdakı "Həyat" İstirahət Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar çimərlik voleybolu üzrə turnir keçirilib.

Olimpiya sistemi üzrə keçirilən yarışda 20 kişi, 11 qadın komandası qüvvəsini sınayıb.

Xanımların mübarizəsində "İl Azero" çempion tituluna yiyələnib. Kəmalə Əsgərova və Lyubov Qaluşkodan ibarət cütlük həlledici görüşdə Səbinə və Kameyla Mustafayevalardan ibarət "Sofi"yə qalib gəlib. İlk üçlükdə AVF (Dünya Vəliyeva və Fidan Ağaməmmədova) qərarlaşıb. Kişi voleybolçuların oyunu daha gərgin alınıb. Yarışda əsas yığmamızın üzvləri Pərviz Səmədov və Tural Həsənlidən ibarət "Taleh-1" bütün rəqiblərindən güclü olub. İkinci yeri "Sərhədçi" (Cavid Süleymanov və Aqil Ağayev), üçüncü pilləni isə "Taleh-2" (Purya Yazdenpenah və Asif Əliyev) tutub.



* * *

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə qol güləşi üzrə Azərbaycan çempionatı keçirilib. Çempionatda respublikamızın 30-dan artıq bölgəsini təmsil edən 200-ə yaxın idmançı iştirak edib.

Çempionatın birinci günündə Avropa Qol Güləşi Federasiyasının vitse-prezidenti, Azərbaycan Qol Güləşi Federasiyasının prezidenti Cəsarət Əhmədovun rəhbərliyi ilə idmançılar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Yarışın açılış mərasimində Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Cəsarət Əhmədov çıxış edərək iştirakçılara uğurlar arzulayıb. Federasiya rəhbəri qazanılan uğurların davamlı olması, ölkəmizin daha da inkişaf etməsi üçün xalqımızın, o cümlədən Azərbaycan gəncliyinin dövlətimizin Prezidenti İlham Əliyevin ətrafında daha sıx birləşməsinin vacibliyini qeyd edib.

Sonra yarışlara start verilib. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda bütün çəki dərəcələrində Azərbaycanın ən güclüləri müəyyənləşib. Qaliblər diplom və medallarla təltif ediliblər.

* * *

"Neftçi İdman Klubu"nun 2004-2005-ci, 2006-2007-ci, 2008-2009-cu, 2011-ci illər təvəllüdlü və daha kiçik yaşlı idmançılar arasında şahmat üzrə açıq birinciliyi keçirilib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş yarış Lökbatan qəsəbəsində yerləşən Qaradağ Təlim-İdman Bazasında təşkil olunub. Yarışda 47 idmançı qalib adı uğrunda mübarizə aparıb.

2004-2005-ci illər təvəllüdlü şahmatçılar arasında Nicat Fərzəliyev qalib adını qazanıb. İlham Ağayev yarışı ikinci, Elvin Haqverdiyev üçüncü pillədə başa vurublar.

2006-2007-ci illər təvəllüdlü idmançıların mübarizəsində Cəbrayıl Zərbəliyev birinci olub. Əliqismət Hüseynzadə və Üzeyir Əlizadə isə ilk üçlüyü tamamlayıblar.

Nuray Musayeva 2008-2009-cu illər təvəllüdlülərin yarışında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Tamerlan İbrahimli ikinci, Fidan Aşırlı üçüncü yerdə qərarlaşıblar.

2011-ci il təvəllüdlü və daha kiçik yaşlı idmançılar arasında Ayan Mirzəzadə bütün rəqiblərindən üstün olub. Aylin Mütəllimzadə gümüş, Ahu Şahmalıyeva isə bürünc medal qazanıblar.

Turnirin qalib və mükafatçılarına "Neftçi İdman Klubu" tərəfindən diplom və xatirə hədiyyələri təqdim olunub.

* * *

Almaniyanın Vaysvasser şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş peşəkar boks turniri keçirilib. Turnir Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə təşkil olunub.

Turnirin təntənəli açılış mərasimində Vaysvasser şəhər meriyasının rəhbəri, Almaniya ictimaiyyətinin, Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər. Almaniyanın və Azərbaycanın dövlət himnlərinin səsləndirilməsi ilə start verilən çempionatı 2 minə yaxın tamaşaçı izləyib.

Turnirdə ukraynalı boksçu Oleksandr Hareşenko, Almaniya boksçuları Tino Fröhliç və Dominik Kosel, Polşa boksçusu Tomas Andreevski və digər ölkələrdən olan peşəkar boksçular Heydər Əliyevin adını daşıyan kəmərlər uğrunda mübarizə aparıblar.

Çempionatın qalibi almaniyalı boksçu Tino Fröhliç (ağır çəkidə) olub. O, ukraynalı rəqibi Oleksandr Hareşenko üzərində qələbə qazanıb. Orta ağır çəkidə isə almaniyalı boksçu Dominik Kosel ölkəmizi təmsil edən Fərşid Rostamiyə qalib gəlib.

Qeyd edək ki, Heydər Əliyev adına Dünya Boks Komitəsi 2012-ci ildə Almaniyanın Maqdeburq şəhərində soydaşımız Yaşar Niftəliyev Millinits tərəfindən yaradılıb. Komitənin məqsədi dünyada yaşayan azərbaycanlı idmançıları bir araya gətirmək, ulu öndər Heydər Əliyevin idmanla bağlı tövsiyələrini yerinə yetirmək, başqa millətlərdən olan idmançılarla Avropada yaşayan azərbaycanlı idmançılar arasında dostluq əlaqələrini möhkəmləndirmək, ümummilli liderin adını daşıyan kəmərləri dünyanın ən məşhur kəmərləri sırasına çıxarmaqdır.

* * *

Bakıda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş boks üzrə turnir keçirilib. Turnirdə astaralı azyaşlı boksçular da iştirak edib və yüksək nəticələr qazanıblar.

Turnirdə Raman Mirzəzadə (28 kq), Əli Əliyev (34 kq), Nurlan Əliyev (36 kq), Nurlan Əliyev (38 kq) qızıl, Beytulla Qənbərov (38 kq) gümüş medala layiq görülüblər.

# Azərbaycan Ağır Atletika Federasiyası ciddi islahatlara başlayıb

***Moskvada Rusiya Ağır Atletika Federasiyasının (RAAF) təşkilatçılığı ilə beynəlxalq antidopinq seminarı keçirilib. Tədbirdə bir sıra mühüm məsələlər müzakirə edilib. Seminarda ölkəmizi Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) baş katibi Rizvan Rəsulov təmsil edib.***



Rizvan Rəsulov seminarda 11 ölkənin milli federasiyalarının nümayəndələrinin iştirak etdyini diqqətə çatdıraraq deyib: "Seminar olduqca səmərəli keçdi. Əsas məqsəd ağırlıqqaldırma idman növündə yaranan dopinq problemlərindən qaçmaq və gələcəkdə təmiz idman rəqabəti mühitinin yaradılması üçün səmərəli vasitə və metodların tətbiqi məsələlərinin müzakirəsi idi. Əsas məsələlərdən biri kimi ağır atletikada qeyri-dopinq hesab edilən yeni bitki preparatlarının tətbiqinin perspektiv və uğurları mövzusunda maraqlı mühazirələrin olması idi".

Dopinqin idmanda ümumi problem olduğunu vurğulayan Rizvan Rəsulov qeyd edib ki, xüsusilə müvəqqəti cəza almış ölkələr üçün bu, daha böyük əhəmiyyət daşıyır. Tətbiq olunan cəzanın aradan qaldırılması üçün müəyyən qərarlar qəbul edilir. Bu qərarların icrasını tam yerinə yetirən ölkələr də var, çətinlik çəkənlər, pozuntulara yol verənlər də. AAAF götürdüyü öhdəliklərə, qərarlarda göstərilən bütün bəndlərə tam riayət edir. Bunu seminarda da qeyd etdilər. Çalışırıq ki, ən yaxın zamanda yeniyetmələrimiz, sonra isə gənclərimiz və böyüklərimiz yarışlarda ştirak etmək hüququ əldə edə bilsinlər.

Baş katib vurğulayıb ki, işlərimiz müəyyən olunan plan üzrə davam etdirilməlidir. "Biz götürdüyümüz öhdəliyi layiqincə yerinə yetirməyə çalışırıq. Bu məqsədə nə qədər nail olacağımızı zaman göstərəcək. Biz ilk olaraq bu sahədə kütləviliyə nail olunması istiqamətində addımlar atmışıq. Əsas da yeniyetmələrin yaxşı hazırlıq prosesi keçməsi, onların müəyyən səviyyəyə çatması üçün daha çox işlər aparılır. Çünki dopinqin qarşısının alınması, birdəfəlik yox edilməsi üçün kiçik yaşlardan aparılan işlər xüsusi əhəmiyyət daşıyır. İyunda verilən qadağanın səkkiz ayı başa çatır. Biz Milanda keçiriləcək 15 və 17 yaşlı oğlanlar və qızlar arasında Avropa birinciliyində iştirak etmək istəyirik. Çünki orada 17 yaşlı qızlar arasında yarış bizim üçün böyük əhəmiyyət daşıyır. Biz bu yarış vasitəsilə qızlar arasında Buenos-Ayres Yay Olimpiya Oyunlarına daha bir lisenziya əldə edə bilərik. Tokio Olimpiadası ilə bağlı məsələ isə fərqlidir. Çünki lisenziya əldə edilməsi sistemi dəyişib. Əvvəllər Olimpiadaya komanda hesabında toplanılan xallar vasitəsilə vəsiqə qazanılırdısa, indi bu hüququ fərdi qaydada əldə etmək lazımdır. Bunun üçün idmançılarımız şəxsi reytinqlərini yüksəltməli və 2018-2020-ci illərdə keçirilən lisenziya yarışlarında iştirak edərək mümkün qədər çox xal toplamalıdırlar. Bu dövr üçün idmançının iştirak edəcəyi 6 yarışdan 4-də göstərdiyi ən yaxşı nəticə qeydə alınacaq. Bu ilin noyabrında Türkmənistanda dünya çempionatı keçiriləcək. İlk lisenziya xalları da elə bu yarışda qazanılacaq. Ona görə builki dünya çempionatı xüsusi əhəmiyyət kəsb edəcək. Beynəlxalq Olimpiya Komitəsinin qərarına görə, 2008-ci ildən indiyədək 20-dən çox dopinq hadisəsi qeydə alınan federasiyalar (buraya Azərbaycan da daxildir) Tokioda cəmi 2 ağırlıqqaldıranla (1 kişi və 1 qadın) təmsil oluna biləcəklər.

"Maddi-texniki bazanın gücləndirilməsi və idman növünün coğrafiyasının genişləndirilməsi istiqamətində Azərbaycan Ağır Atletika Federasiyası hazırda ciddi islahatlara start verib. İxtiyarımızda olan ağırlıqqaldırma avadanlığının yerlərə paylanmasını təşkil edir, idman zallarını təmir edir, yeni ağırlıqqaldırma zalları istifadəyə veririk. Hazırlıq istiqamətində isə keçən ilin dekabrından etibarən fasiləsiz təlim-məşq toplanışlarına start vermişik. Düzgün qidalanma, tibbi-bioloji təminat və əsasən də texniki, fiziki və psixoloji hazırlıqları qarşımıza əsas vəzifə qoymuşuq. Sıralarımıza əsasən yeniyetmə idmançıları dəvət etmişik. Milli yığma üçün ehtiyat qüvvələri hazırlamaq istiqamətində kompleks tədbirlər həyata keçiririk", - deyə Rizvan Rəsulov bildirib.

## *Qadın voleybolçularımz Mariborda təlim-məşq toplanışındadırlar*



Sloveniyada Qızıl Avropa Liqasına hazırlaşan qadın voleybolçulardan ibarət Azərbaycan yığması ilk yoxlama oyununu keçirib. Faiq Qarayevin yetirmələri Avstriya yığması ilə qarşılaşıblar. Görüş Azərbaycan yığmasının 4:1 (25:15, 25:22, 25:20, 25:17, 10:15) hesablı qələbəsi ilə başa çatıb. Komandamız növbəti yoxlama oyununda Slovakiya yığmasını sınağa çəkib. Yığmamız çətinlik çəkmədən qələbə qazanıb - 3:0 (25:19, 25:14, 25:12).

Qeyd edək ki, milli komandamızın Maribordakı təlim-məşq toplanışına mayın 16-da yekun vurulacaq.

* * *

Azərbaycan millisinin voleybolçusu Natalya Məmmədova Kazanın "Dinamo" klubu ilə vidalaşıb. 34 yaşlı hücumçu yeni mövsümdə Tatarıstan təmsilçisinin heyətində olmayacaq. Bu səbəbdən onun bir müddət öncə bağladığı müqavilə qarşılıqlı razılıq əsasında qüvvədən düşüb. Natalya Məmmədovanın Rusiyada digər klubla danışıq apardığı bildirilir. Onunla yanaşı, bolqarıstanlı Elitsa Vasileva da "Dinamo"dan ayrılıb.

Qeyd edək ki, Natalya 2017/2018 mövsümündə Kazan təmsilçisi ilə Rusiya kubokunu və Super Liqanın gümüş medalını qazanıb.

## İdmançı sənət, sənətçi idman haqqında

*2001-ci ildən işıq üzü görən “Olimpiya dünyası” hər zaman öz səhifələrində müxtəlif rubrikalar altında oxucuların marağına səbəb olan yazılar dərc edir. Bu rubrikalardan biri də “İdmançı sənət, sənətçi idman haqqında”dır. Həmin rubrika altında dərc olunan yazılarda bayrağımızı dünyada tanıtdıran idmançılarımız incəsənətdən, öz istedadı ilə milyonların sevimlisi olan digər sənət nümayəndələri isə idmandan danışıb. “İdmançı sənət, sənətçi idman haqqında”nın budəfəki qonaqları futbol üzrə milli komandamızın keçmiş üzvü, “Qarabağ” klubunun kapitanı Rəşad Sadıqov və Azərbaycan Gənc Tamaşaçılar Teatrının aktyoru Elşən Şirəliyevdir (Çarhanlı).*

*Ayrı-ayrı sahələrin nümayəndələri olsalar da, hər iki qonağımız bir-birindən xəbərsiz olaraq onlara ünvanladığımız sualları özünəməxsus tərzdə cavablandırdılar.*

# Futbol da bir teatrdır: onun da sadiq tamaşaçıları var

## “Azərbaycan musiqisi və kinofilmləri dünyada əvəzsizdir”



Rəşad Sadıqov 1982-ci iliyunun 16-da Bakı şəhərində anadan olub. Azərbaycan milli futbol komandasının keçmiş və hazırda isə “Qarabağ” klubunun kapitanıdır. Müdafiəçimiz 2000-2001-ci illərdə Azərbaycanın “Turan Tovuz”, 2001-2002, 2003-2005, 2006-2008-ci illərdə “Neftçi”, 2009-2010-cu illərdə “Qarabağ”, 2002-2003-cü illərdə İranın “Fulad Xuzistan” və 2005-2006-cı illərdə Türkiyənin “Kayserispor”, 2008-2009-cu illərdə “Kocaelispor”, 2010-2011-ci illərdə Əskişəhərspor klublarının heyətində yer alıb. 2011-ci ildən Azərbaycanın “Qarabağ” klubunda çıxış edir.

Rəşad Sadıqov dörd dəfə Azərbaycanda ilin futbolçusu seçilib. Beş dəfə Azərbaycan Premyer Liqasının, üç dəfə isə Azərbaycan Kubokunun qalibi olub. Rəşad Sadıqov 2001-ci ildən Azərbaycan milli futbol komandasında 2001-ci ildən çıxış edən futbolçumuz milli komandasının heyətində ən çox oyun keçirən oyunçudur.

***- Rəşad, incəsənətə münasibətin necədir?***



- Bu barədə suallara çox az rast gəlirəm. Hər zaman həmkarlarınız yalnız futboldan - milli komandadan və “Qarabağ”dan suallar verirlər. Sizinlə müsahibənin hansı mövzuda olacağını soruşanda, dediniz ki, incəsənətdən danışacağıq. Bir anlıq nədən danışacağımı beynimdə bir araya gətirməyə çalışdım. Yəqin ki, çətin olmaz mənə. İnəsəcəsənətə, onun ayrı-ayrı sahələrinə qarşı hər zaman diqqətli olmuşam. Kinoya, musiqiyə, rəssamlığa və digər sahələrə qarşı biganə deyiləm. Hər sahədən qismən olsa da, xəbərim var.

***- Yəqin ki, daha çox musiqi və kinodan danışmağa üstünlük verəcəksən.***

- Biz idmançılar üçün boş vaxt çox az olur. Elə olur ki, uzun müddət səfərlərdə olur, ailədən kənarda qalırıq. Uzun və gərgin məşqdən sonra yalnız dincəlmək barədə düşünürük. Musiqi bu işdə vasitəçi rolunu oynayır. Yaxud yuxusuz olanda televiziyada kinoya baxırıq. Ən azı yuxu gələnə qədər. İmkan düşəndə Azərbaycan musiqilərinə qulaq asır və milli kinolarımızın incilərinə tamaşa edirəm. Doğrudan da, Azərbaycan musiqisi və kinofilmləri dünyada əvəzsizdir. Bizim hər birimiz uşaq vaxtından bu sənət nümunələrinin təsiri ilə böyümüşük.

***- Musiqini başa düşdük. Bəs, hansı filmləri bəyənirsən?***

- (Gülür) Bir qədər düşünməli olacağam. Bu o demək deyil ki, yadıma salmağa çalışıram. Ən yaxşılarını bir yerə yığmaq istəyirəm. Çox səmimi deyəcəyəm. Hər bir kinomuz özünəməxsusluğu ilə seçilir. Bilmirəm, hansıdan başlayım. Uşaq vaxtında ən çox “Sehirli xalat” filmini xoşlayırdım. Kinodakı hadisələr məni həyəcanda saxlayırdı. Gözümü qırpmadan “Xanı” tutmağa çalışan “pionerlər”dən biri kimi onları izləyirdim. “Yenilməz batalyon” filminə isə dəfələrlə baxmışam. Oradakı musiqini isə çox sevirəm. Adını bilməsəm də, harada eşitsəm, mənə zövq verir - (Anatollu Qəniyev - “Teymurun mahnısı”- red).

***- Adın çəkdiyin iki film ayrı-ayrı mövzulu və yaş həddi üçün fərqli filmlərdir. Lakin hər birinə xüsusi yanaşdın.***

- Ola bilər. Bizim filmlərimizdə insan həyatı fərqli bir məkanda öz əksini tapıb. Ayrı-ayrılıqda hamısı yaddaqalandır. Filmlərdəki sözlər bu gün də hamının dilində əzbərdir. Məşqlərdə belə həmin sitatları işlədib, bir-birimizlə zarafatlaşırıq. Təəssüf ki, indi belə filmlər çox az çəkilir. Çəkilənlərdə isə mövzu maraqsız, bəsit və yorucu olur.

***- Daha hansı filmdən danışa bilərsən?***

- Bayaqdan yadıma salmaq istəyirəm. İndi yadıma düşdü. Milli kinolarımızdan “Yeddi oğul istərəm” filmini bəyənirəm. Bu film çox maraqlı çəkilib. Bir növ Amerikanın “vestern” janrındadır. Filmdəki aktyor heyətinə isə söz ola bilməz. Həsən Məmmədov, Həsənağa Turabov, Şahmar Ələkbərov və başqaları bu filmə xüsusi maraq qatıblar. “Mirpaşa” rolu isə daha yadda qalandır - (Həmin rolu filmdə Elçin Məmmədov canlandırıb -red). Hər bir Azərbaycan filmi sanki dərslik, bir intellekt nümunəsidir.

***- Azərbaycanın ən yaxşı futbolçusuna sual versək ki, ən yaxşı aktyorumuz hansıdır? Bizə necə cavab verər, kimin adını çəkə bilər?***

- (Gülür) Maraqlı sualdır. Amma deyim ki, Azərbaycanda ən yaxşı futbolçu tək mən deyiləm. İstər ölkə çempionatlarında, istər səd yığma komanda da yaxış futbolçularımız var. O ki qaldı ən yaxşı aktyora, bunu demək bir az çətindir. Hər birinin öz xüsusiyyəti, dəsti-xətti var. Mən daha çox Fəxrəddin Manafovu bəyənirəm. Onun çəkilidiyi “Təhminə və Zaur” filminə dəfələrlə baxmışam. Yeri gəlmişkən, həmin filmdə Zaur idmançı olur, deyəsən. Həmin aktyor çox istedadlıdır. Mən onun iştirak etdiyi bir sıra Rusiya filmlərinə də baxmışam. Aktrisalardan isə daha çox Afaq Bəşirqızını bəyənirəm. Həm tamaşalarda, həm də filmlərdə onun səhnə bacarığı hamını valeh edir.

***- Söhbət zamanı qeyd etdin ki, müasir filmlərə baxmırsan. Bunu nə ilə əlaqələndirirsən?***

- Qocaman aktyorlarımıza və gənclərə böyük hörmətim var. Amma nədənsə bugünki filmlər əvvəlkilər qədər yaddaqalan deyil. Bir dəfə baxdıqdan sonra ikinci dəfə baxmaq istəmirsən. İndiki filmlərdə düşündürücü və nəsihətamiz sözlər demək olar ki, yoxdur. Bu, bilmirəm nəyə görə belədir. Görünür nəsə lazımi səviyyədə deyil.

***- Hesab edirik ki, suallarımız ürəyincə oldu.***

- Hansı sahənin nümayəndəsi, hansı peşənin sahibi olursansa, ol, fərqi yoxdur. Gərək dünyagörüşün lazımi səviyyədə olsun. Sənə verilən suallar təkcə futbolu əhatə edə bilməz. Hər bir sahədən nisbətən xəbərdar olmalısan. Çalışdım ki, suallara bacardığım qədər cavab verə bilim. Söhbətimiz maraqlı alındı.

## “Həvəslə baxdığım oyunu yuxuda da görürəm”



Neçə-neçə ekran və səhnə əsərlərində yaddaqalan rolları olan Elşən Çarhanlı 1962-ci il oktyabrın 2-də Bakı şəhərində doğulub. 1983-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun “Dram və kino aktyorluğu” fakültəsini bitirib. Həmin ildən təyinatla H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında əmək fəaliyyətinə başlayıb. 1989-cu ildən Azərbaycan Dövlət Gənclər Teatrının aktyoru olub. 2009-cu il may ayının 1-dən isə Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrının aktyorudur. 2014-cü il martın 7-də Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin “Fəxri Mədəniyyət İşçisi” döş nişanı ilə təltif olunub. 40-dan artıq tamaşada, 10-dan artıq filmdə fərqli obrazlar yaradıb.

***- Elşən müəllim, idman mövzusunda danışmaq çətin olmayacaq ki?***

- Xeyr. İdman sahəsindən yetərincə məlumatlıyam. Hamı kimi futboldan danışmağı xoşlayıram. Hesab edirəm ki, bu sahədə danışmaq çətin olmayacaq. Baxır siz, hansı sualı verəcəksiniz?

***- Aktyorluq fitri-istedad, Tanrı vergisidir. Hər adam aktyor ola bilməz. Bu fikirlə razılaşırsınız?***

- Tamamilə doğru yanaşmadır. İncəsənət Akademiyasını bitirən hər tələbə aktyor ola bilmir. Bilirsiniz ki, bunun üçün əvvəlcədən qabiliyyət imtahanı verirlər. Bu istedadla yanaşı, fiziki və mənəvi hazırlıq tələb edir. Deməli, aktyorluq üçün idman gərəklidir. Etüdləri göstərən aktyorun bədəni qıvraq olmalıdır. Tamaşalarda və məşqlərdə dözüm və çeviklik tələb olunur. Aktyorluq insanın daxilindən gəlir. Sonradan onu bir araya toplayıb, bacarıq nümaiş etdirməlisən. Bu isə, sizin dediyiniz kimi, fitri-istedaddır.

***- İdmanla məşğul olmusunuzmu?***

- Hamı kimi, mən də uşaq vaxtı həyətdə futbol oynamağı sevmişəm. Məhəlləmizdə balaca bir futbol meydançası var idi. Yay vaxtı uşaqlarla yığılıb həmin meydançaya gedərdik. Saatlarla həyətdə top qovardıq. İndi o meydança sökülüb, yerində evlər tikiblər. Nə yorulardıq, nə də bezərdik. Nə vaxtsa futbolçu olmaq istəmişəm. Amma qayğılar və dərslər bu marağı ikinci plana salıb. Əgər bu istəyimin ardınca getsəydim, yaxşı futbolçu olardım.

***- İdmanla məşğul olmaq heç vaxt gec deyil. Bu fikrə münasibətiniz necədir?***

- Məlumdur ki, aktyorlar fəal həyat tərzi keçirirlər. Bunun görə bizim üçün idmanla məşğul olmaq olduqca vacibdir. Şəxsən, mən yay aylarında “20 Yanvar” metrosundan teatra qədər piyada gəlirəm. Həmin məsafəni təxminən 1 saata qət edirəm. Amma mənə çox rahatdır. Yorğunluq hiss etmirəm. Gəzə-gəzə həm də tamaşanın sözlərini beynimdə təkrarlayıram. Futbola, hokkeyə, voleybola çox marağım var. Gecə saatlarına qədər davam edən matçları belə maraqla izləyirəm. Səhər saat 11-də məşqdə olmalıyam. Ancaq yenə də matçı sona qədər izləyirəm. Elə olur ki, həvəslə baxdığım oyunu yuxuda da görürəm.

***- Əgər aktyor olmasaydınız, hansı peşəni seçərdiniz?***

- Yenə deyirəm, aktyor olmasaydım, bəlkə də futbolçu olardım. Amma 1979-cu ildə universitetə ərizə verəndə düşünürdüm ki, qəbul olmasam dərzi kimi çalışacağam. Axı dərzi özü də daim hərəkətdə olur.

***- Futbolla bu qədər maraqlanırsız, bəs hansı komandalara azarkeşlik edirsiniz?***

- Yerli çempionatda “Neftçi”, “Qarabağ” və “Sumqayıt” klublarına azarkeşlik edirəm.”Neftçi” bizim keçmişimiz, bu günümüz və gələcəyimizdir. “Qarabağ” bizim işğal olunmuş torpaqlarımızın adını daşıyır. “Sumqayıt”a azarkeşlik etməyimin səbəbi isə o vaxtlar Sumqayıt teatrında işləməyimdir. Həmin komandaya qarşı doğmalıq hiss edirəm. Lakin belə düşünürəm ki, ölkəmizdə futbolun kütləviliyi əvvəlki kimi deyil. Sovet dövründə mən bütün oyunları birbaşa stadiondan izləyirdim. “Neftçi”nin “Kayrat” komandasını 6:0 məğlub etməsi bu günə kimi yadımdan çıxmır. “Neftçi” “Çernomorets” qarşılaşmasının 90-cı dəqiqəsində İqor Ponomaryovun küncdən zərbəsi ilə vurduğu qol həlledici olmuşdu. Bu hadisə gözlərimin önündə baş vermişdi. Bundan başqa, “Qalatasaray”ın, “Barselona”nın, “Milan”ın oyunlarını dəstəkləyirəm. Fransa çempionatını isə izləmirəm. Çox maraqsızdır. Rusiya çempionatında hər zaman zəif komandaya azarkeşlik edirəm.

***- Bəs yerli idmançılardan kimə xüsusi rəğbətiniz var?***



- Futbolla daha çox maraqlandığıma görə məşqçilərdən Qurban Qurbanovun, idmançılardan isə Rəşad Sadıqovun adını çəkə bilərəm. Onlar, həqiqətən, bacarıqlı və istedadlı idmançılardır. Qurban Qurbanovun komandası bizə Çempionlar Liqası kimi mötəbər futbol turnirində iştirak etmək sevinci bəxş etdi. “Qarabağ” Avropanın ən yaxşı komandaları ilə mübarizə apardı. “Roma” “Çelsi”, “Atletiko” kimi güclü klubları biz Bakıda gördük. Bu çox sevindiricidir. Hesab edirəm ki, bu hələ son deyil. Tezliklə həmin uğur yenidən təkrarlanacaq. Yığma komandamız da Avropa və dünya çempionatlarında iştirak edəcək. Bu yuxu deyil. Sadəcə zamana və görülən işin bəhrəsinə ehtiyac var.







***Hazırladı:***
***Kənan Novruzov,***
***Əliyə İlyasova***

# FUTBOL

## “Neftçi” üçüncü pilləyə yüksəldi



Ötən həftə futbol üzrə Topaz Premyer Liqasında XXVII turun oyunları keçirilib. Turun ilk oyununda “Qarabağ” komandası səfərdə “Keşlə” ilə qarşılaşıb. “İnter Arena”da keçirilən oyun meydan sahiblərinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Görüşdə hesabı dördüncü dəqiqədə “Keşlə” futbolçuları açıb. Paytaxt təmsilçisinin legioneri Andre Klenon komandasını hesabda önə çıxarıb. Bu qoldan dörd dəqiqə sonra Pərdis Fərcad-Azad fərqi iki topa çatdırıb. Matçda sonuncu qolu Slavik Alxasov vurub.

Bu oyundan sonra xallarının sayını 28-ə çatdıran “Keşlə” altıncı yerdəki mövqeyini daha da möhkəmləndirib. “Qarabağ” isə 62 xalla birinci yerdədir.

Turun digər üç oyunu da eyni saatda başlayıb. “Qəbələ” səfərdə “Sumqayıt” klubu ilə qarşılaşıb. Görüş qonaqların 2:0 hesablı qələbəsi ilə başa çatıb. “Qəbələ” bu qələbə ilə “gümüş” medalı rəsmiləşdirib. “Sumqayıt”ın xal itirməsindən yararlanan “Neftçi” klubu isə “Səbail”ə 3:1 hesabı ilə qalib gələrək bürünc medal uğrunda mübarizədə önə keçib.

Turun digər oyununda “Zirə” klubu doğma azarkeşlər önündə “Kəpəz”i qəbul edib. Zirə İdman Kompleksinin stadionunda keçirilən oyunda meydan sahibləri 2:1 hesabı ilə qələbə qazanıb.

“Zirə” komandası bu qələbə ilə 4-cü pilləyə yüksəlib.

| | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|
| 1. Qarabağ | 27 | 19 | 5 | 3 | 36:13 | 62 |
| 2. Qəbələ | 27 | 14 | 7 | 6 | 42:25 | 49 |
| 3. Neftçi | 27 | 13 | 4 | 10 | 37:27 | 43 |
| 4. Zirə | 27 | 11 | 8 | 8 | 34:29 | 41 |
| 5. Sumqayıt | 27 | 11 | 7 | 9 | 33:30 | 40 |
| 6. Keşlə | 27 | 7 | 7 | 13 | 28:39 | 28 |
| 7. Səbail | 27 | 6 | 5 | 16 | 19:38 | 23 |
| 8. Kəpəz | 27 | 3 | 5 | 19 | 17:45 | 14 |

**Bombardir:** Baqali Dabo (“Qəbələ”) - 13 qol.

## Yalnız möcüzə “Qızıl buts”un builki sahibini dəyişə bilər

2017-2018-ci illər mövsümündə “Qızıl buts” mükafatını qazanacaq futbolçunun adına böyük ölçüdə aydınlıq gəlib.

| Yer Futbolçu | Klubu | Liqası | Qol | Əmsal | Xal |
|---|---|---|---|---|---|
| 1. Lionel Messi | Barselona | İspaniya | 34 | 2.0 | 68.0 |
| 2. Məhəmməd Salah | Liverpul | İngiltərə | 32 | 2.0 | 64.0 |
| 3. Robert Levandovski | Bavariya | Almaniya | 29 | 2.0 | 58.0 |
| 4. Harri Keyn | Tottenhem | İngiltərə | 29 | 2.0 | 58.0 |
| 5. Çiro İmmobile | Latsio | İtaliya | 29 | 2.0 | 58.0 |
| 6. Edinson Kavani | PSJ | Fransa | 28 | 2.0 | 56.0 |
| 7. Mauro İkardi | İnter | İtaliya | 28 | 2.0 | 56.0 |
| 8. Kriştianu Ronaldu | Real | İspaniya | 25 | 2.0 | 50.0 |
| 9. Luis Suares | Barselona | İspaniya | 25 | 2.0 | 50.0 |
| 10. Jonas | Benfika | Portuqaliya | 33 | 1.5 | 49.5 |

“Barselona”nın lideri Lionel Messi bu mükafata çox yaxındı. Argentinalı ulduz La Liqanın XXXVII turunda “Levante” ilə qarşılaşmanı buraxmasına baxmayaraq, rəqibləri ona çata bilməyiblər. Belə ki, İngiltərə Premyer Liqasının son turunda bir dəfə fərqlənən Məhəmməd Salah mövsümü 32 qolla tamamlayıb. Növbəti sıralarda qərarlaşan Robert Levandovski və Harri Keynin də iştirak etdiyi çempionat başa çatıb. Çiro İmmobile isə zədə üzündən mövsümü erkən bitirib. Messi kimi, Edinson Kavani, Mauro İkardi, Kriştianu Ronaldu və Luis Suaresin də ehtiyatında 1 oyun var. Lakin onların Leoya çatmaları qeyri-mümkün görünür. Belə ki, argentinalının son turda fərqlənməməsi ilə yanaşı, Kavani və İkardi 6, Ronaldo ilə Suares isə 9 top vurmalıdı ki, ona çata bilsinlər. Bunun reallaşması möcüzəyə bərabər sayıldığından, Messinin karyerası ərzində 5-ci dəfə “Qızıl buts”u qazanacağını indidən söyləmək olar. 2009-10 (34 qol), 2011-12 (50), 2012-13 (46) və 2016-17 (37) mövsümlərində də titula yiyələnən 31 yaşlı superulduz 4 dəfə “Qızıl buts” qazanan Kriştianu Ronaldonu geridə qoyaraq, bu baxımdan yeni rekorda imza atacaq.

## Azərbaycanın beş klubuna avrokuboklarda iştirak lisenziyası verilib

Mayın 12-də AFFA-nın Lisenziya Komissiyasının iclası keçirilib.

İclasda 2018-2019-cu illər mövsümündə UEFA-nın klub turnirlərində və Premyer Liqada iştirak etmək üçün müraciət etmiş futbol klublarının sənədlərinə baxılıb.

AFFA-nın Lisenziya Komissiyası klubların lisenziyalaşdırılması üzrə qaydaların (Buraxılış 2017) 8-ci maddəsinə əsasən aparılan müzakirələrdən sonra UEFA-nın klub yarışlarında iştirak etmək üçün “Qarabağ”, “Qəbələ”, “Neftçi”, “Sumqayıt” və “Zirə” klublarına lisenziya verilib. “Kəpəz”ə isə lisenziya verilməyib.

Premyer Liqada iştirak etmək üçün “Keşlə”, “Kəpəz”, “Sabah” və “Səbail” klublarına lisenziya verilib. “Binə”, “Xəzər”, “Mil-Muğan”, MOİK, “Turan Tovuz”, “Qaradağ-Lökbatan”, “Şüvələn” və “Zaqatala”nın müraciətləri uğursuz olub.

Lisenziya iddiaçısı müraciətinin qəbul olunmaması barədə verilən bildirişin tarixindən etibarən 10 gün müddətində AFFA-nın Lisenziyalaşdırma üzrə Apellyasiya Komitəsinə apellyasiya şikayəti verə bilər.

UEFA-nın Klubların Lisenziyalaşdırılması və Maliyyə Fair Play qaydalarında əks olunmuş tələbə əsasən, UEFA-nın klub yarışlarında iştirak edən komandalar müvafiq lisenziya əldə etməlidir. UEFA lisenziyasının alınması üçün klublar qaydalarda göstərilmiş bütün mütləq meyarlara cavab verməlidir. Qaydalardan biri “Üçillik üzvlük qaydası” adlanır. Həmin qaydaya əsasən, lisenziya iddiaçısı lisenziyalaşdırma mövsümünün əvvəlində ən azı ardıcıl üç il ərzində fəaliyyət göstərməli və daxili yarışlarda iştirak etməlidir. Məlum olduğu kimi, “Keşlə” komandası “İnter”in davamçısı qismində Azərbaycan Premyer Liqasında iştirak edir. AFFA bu məsələ ilə bağlı “Keşlə”yə istisna yanaşmanın tətbiq olunması ilə bağlı UEFA-ya müraciət edib. UEFA müraciətin baxılması üçün prosesə başlayaraq həm AFFA, həm də “Keşlə” tərəfindən müvafiq sənədlərin toplanması və vaxtında UEFA-ya təqdim olunmasını tələb etmişdi. Hazırda UEFA təqdim olunmuş sənədlərin araşdırılması ilə məşğuldur və yaxın zamanda rəsmi cavabı AFFA-ya ünvanlayacaq. Bunu nəzərə alaraq, “Keşlə”yə lisenziyanın verilib-verilməməsi ilə bağlı qərar yaxın günlərdə qəbul olunacaq.




2018-2019-cu illər mövsümündə UEFA-nın klub yarışlarında iştirak etmək üçün lisenziya almış klublar avtomatik qaydada eyni mövsüm üçün Azərbaycan Premyer Liqa yarışlarında iştirak etmək üçün lisenziya almış olur.

## II futzal turniri başa çatıb



AFFA və Təhsil Nazirliyinin dəstəyi, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə respublikanın ali və orta ixtisas müəssisələrinin tələbələri arasında təşkil olunan II respublika birinciliyinə yekun vurulub.

Birinciliyin bürünc medallarına Bakı Dövlət Universitetinin komandası sahib çıxıb. Turnirin final qarşılaşması Azərbaycan Texniki Universitetinin idman zalında keçirilib. Həlledici görüşdə Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivini 2:1 hesabı ilə məğlub edən Azərbaycan Texniki Universitetinin komandası II respublika birinciliyinin qalibi olub.

Final oyunundan sonra qalib komandalarının mükafatlandıra mərasimi təşkil olunub. İlk 3 yeri tutan komandalara diplom və medallarla yanaşı, müvafiq olaraq 3 min, 2 min və 1500 manat mükafat verilib. Həmçinin birincilikdə müxtəlif nominasiyalarda fərqlənənlərə xüsusi mükafatlar təqdim olunub.

Mükafatları AFFA-nın birinci vitse-prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, baş katib Elxan Məmmədov, AFFA-nın İcraiyyə Komitəsinin üzvü, Tələbə Futbolu Federasiyasının prezidenti Firudin Qurbanov, AFFA-nın İcraiyyə Komitəsinin üzvü İsgəndər Cavadov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev və veteran futbolçu Arif Əsədov təqdim ediblər.

## “Xəzər” klubu mükafatlandırıldı



Futbol üzrə Azərbaycan birinci Divizionunda 2017/2018-ci il mövsümünün qalib və mükafatçılarına medallar təqdim olunub.

Bu münasibətlə Peşəkar Futbol Liqası tərəfindən “AZAL Arena”da mükafatlandırma mərasimi təşkil edilib. Mükafatları Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev və qurumun baş direktoru Məlik Həsənov təqdim ediblər.

Mərasim “Şüvələn”-”Xəzər” oyunundan sonra keçirilib. İlk olaraq fəxri kürsüyə bürünc medalların sahibi “Şüvələn” klubu dəvət olunub. “Qaradağ Lökbatan” gümüş medallarını aldıqdan sonra isə birinci Divizionun qalibi “Xəzər” klubu mükafatlandırılıb. Qalibə qızıl medallarla yanaşı, kubok da təqdim olunub.

Qeyd edək ki, Elşad Əhmədovun başçılıq etdiyi “Xəzər” debüt ilində I Divizionun qalibi adını qazanıb.

## Qətərlilər stadionları niyə azaldır?

DÇ-2022-nin Təşkilat Komitəsi Qətərdəki dünya çempionatının neçə stadionda keçiriləcəyi ilə bağlı yekun qərarı bu ilin yayında verəcək. Bu məsələyə Rusiyada keçiriləcək DÇ-2018-dən sonra tam aydınlıq gələcək.

Təşkilatçılar yarışa ev sahibliyi edə biləcək 12 stadionu artıq müəyyənləşdirib. Lakin qətərlilər FİFA ilə danışıqlar aparıb, bu rəqəmi 8-ə endirmək istəyir. Bu danışıqlar da gələn ay start götürəcək və DÇ-nin sonunadək yekunlaşmalıdı.

Qeyd edək ki, Qətərin 7 şəhərində keçiriləcək DÇ-2022 noyabrın 21-dən dekabrın 18-dək davam edəcək.

## Ələkbər Məmmədovun xatirəsi turnirlə anılıb

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və AFFA-nın birgə



təşkilatçılığı ilə Əməkdar idman ustası Ələkbər Məmmədovun xatirəsinə həsr olunmuş futbol turnirinə yekun vurulub.

Turnirdə 9 komanda birincilik uğrunda mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda “Keşlə” komandası birinci yeri tutub. “İ.Cavadov BFA” ikinci, BİFM komandası isə üçüncü pillədə qərarlaşıb. İlk üç yeri tutan komandalar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən kubok, müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif olunublar.

## “Təhsil” komandası U-16 qızlar Liqasının qalibidir

AFFA-nın təşkil etdiyi futbol üzrə U-16 qızlar Liqasında 2017/2018-ci il mövsümünə yekun vurulub. “Təhsil” və “Keşlə” Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin (RİOEUGİM) ikinci komandası arasında oyundan sonra mövsümü ilk 3 pillədə başa vurmuş komandaların mükafatlandırılması mərasimi təşkil olunub.

Mükafatları AFFA-nın baş katibinin müavini Sərxan Hacıyev, kütləvi futbol departamentinin rəhbəri Cahangir Həsənzadə, qadınlardan ibarət U-19 və əsas milli komandanın baş məşqçisi Vüqar Əsgərli, Qızlar Liqası şöbəsinin rəhbəri Nəriman Axundov təqdim ediblər.

U-16 qızlar Liqasının qalibi “Təhsil” komandası olub. UGİM (Qax) ikinci, “Keşlə” RİOEUGİM-2 isə üçüncü yeri tutub.

Alina Nəhmədova (“Fidan”) ən yaxşı oyunçu, Pərvin Səfərəliyeva (“Keşlə”




RİOEUGİM-2) “Fair-play” mükafatına layiq görülüb. Qaxı təmsil edən UGİM komandasının üzvü Ofelya Durmuşova 57 qolla liqanın bombardiri olub.

## Çempionlar Liqası: 24 klubdan 17-si məlumdur

Çempionlar Liqasının 2018/19 mövsümündə mübarizəyə qrup mərhələsindən başlayacaq 17 komandanın adı müəyyənləşib. Öz ölkəsinin çempionatından ÇL-in qrup mərhələsinə birbaşa vəsiqə əldə edəcək 24 klubdan yalnız 7-si dəqiqləşməyib.

Belə ki, qrupa vəsiqəni təmin edənlər arasında “Real”, “Barselona”, “Atletiko”, “Valensiya” (hamısı İspaniya), “Mançester Siti”, “Mançester Yunayted”, “Tottenhem” (hamısı İngiltərə), “Bavariya”, “Şalke”, “Hoffenhaym”, “Borussiya” Dortmund (hamısı Almaniya), “Yuventus”, “Napoli”, “Roma” (hamısı İtaliya), PSJ (Fransa), “Porto” (Portuqaliya) və “Lokomotiv” (Rusiya) klubları yer alıb. Digər 7 komanda son turlarda müəyyənləşəcək.

Qeyd edək ki, qrup mərhələsinə 6 komanda təsnifat mərhələsindən qoşulacaqsa, avrokubokların iki qalibinin kimliyi daha 2 yerin bölüşdürülməsindən asılı olacaq.

## Maradona “Dinamo”nun baş məşqçisi ola bilər

Argentina millisinin sabiq baş məşqçisi Dieqo Maradona karyerasını Belarusda davam etdirə bilər.

Xarici KİV-lərin yaydığı xəbərə görə, argentinalı mütəxəssis Brest “Dinamo”sunda baş məşqçi olmağa əsas namizəddir. Bu məqsədlə “Dinamo”nun rəhbərliyi Maradona ilə görüşməyi planlaşdırır. Həmin görüşün Dubayda keçirilməsi planlaşdırır.

Məlumat üçün bildirək ki, Maradona sonuncu dəfə Birləşmiş Ərəb Əmirliklərinin “Əl-Fudceyra” klubunda işləyib.

## Beynəlxalq turnirdə dördüncü yer

Slovakiyada 2000-ci il təvəllüdlü futbolçular arasında təşkil edilən beynəlxalq turnirə yekun vurulub.

Yığmamız mayın 11-də üçüncü yer uğrunda oyunda ABŞ-ın müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb. Görüş rəqibin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Futbolçularımızdan Turan Vəlizadə 65-ci, Rauf Hüseynli isə 70-ci dəqiqədə qırmızı vərəqə alıb.

Komandamız turniri 4-cü sırada başa vurub.





# DÜNYA İDMANI

## Çempion üzükləri kimə təqdim olunacaq?

Beynəlxalq Boks Federasiyası (İBF) Vladimir Kliçko və Entoni Coşua qarşılaşmasını 2017-ci ilin döyüşü adlandırıb.

Məlumat üçün bildirək ki, britaniyalı boksçu 2017-ci ilin aprelində Londondakı “Uembli” stadionunda ukraynalı Vladimir Kliçko ilə rinqə çıxmışdı. Döyüşün 11-ci raundunda Entoni Coşua rəqibini texniki nokautla məğlub edərək ağır çəki dərəcəsində İBF, WBA (siper) və İBO versiyaları üzrə dünya çempionu titulunu müdafiə etmişdi. Hazırda o, bu titullardan başqa, həm də WBO çempionudur.

Britaniyalı boksçunun WBA (super) versiyada mütləq rəqibi rusiyalı idmançı Aleksandr Povetkindir.

İBF ən yaxşı boksçuları mükafatlandıracaq. Mükafatlandırma mərasimi mayın 31-də İtaliyada təşkil ediləcək. Belə ki, çempion üzükləri beynəlxalq federasiya tərəfindən Entoni Coşua, Gennadi Qolovkin (Qazaxıstan), Li Selbiyə (Böyük Britaniya) təqdim olunacaq.




## Beysbol klubundan ulduz oyunçuya təklif

Beysbol üzrə aşağı liqanın “Lixay Velli Ayron-Pirs” komandası NBA-nın ulduz basketbolçusu Lebron Ceymsi onlarla oynamağa dəvət edib.

“Lixay Velli Ayron Pirs” “Filadelfiya Fillis” komandasının alt qurumudur və Pensilvaniyada fəaliyyət göstərir. Klub əfsanəvi basketbolçu Lebron Ceymsə digər ulduz oyunçu Maykl Cordanı misal gətirərək basketboldan beysbol idman növünə keçməyi təklif ediblər.

Məlumat üçün bildirək ki, Maykl Cordan 1994-cü ildə aşağı liqada “Birmingem Barons” beysbol komandasında oynayıb. Bu matçdan sonra əfsanəvi oyunçu yenidən basketbola qayıdaraq daha 3 dəfə çempionluq sevinci yaşayıb. Maykl Cordan NBA tarixində 6 qat çempiondur. Lebron Ceymsin isə hesabında hələlik 3 qələbə var.




## 18 oyun qol buraxmadı, əvəzində “Qızıl əlcək” qazandı

“Mançester Yunayted”in qapıçısı David De Xea “Qızıl əlcək” mükafatına layiq görülüb.

Britaniya mətbuatına istinadən yayılan xəbərə görə, ispaniyalı qolkiper Premyer Liqanın 31-ci turundan təxirə salınmış “Vest Hem”lə matçda (0:0) qapısını toxunulmaz saxlayıb.

Bununla da o, çempionatda “qolsuz” oyunların sayını 18-ə çatdırıb. Sonuncu turda heç bir qapıçı De Xeanı keçə bilməyəcəyi üçün o, “Qızıl əlcək” mükafatının sahibi olub.

## İki aydan sonra 30 min cərimə

FİFA Rusiya Futbol İttifaqını cəzalandırıb. Bu barədə ali futbol qurumunun saytında rəsmi xəbər yer alıb. Buna səbəb rusiyalı azarkeşlərin milli komandanın Fransa ilə yoxlama oyununda rəqib futbolçulara qarşı irqçi şüarlar səsləndirməsidir.

FİFA Rusiya Futbol ittifaqını 30 min İsveçrə frankı məbləğində cərimələyib.

Qeyd edək ki, martın 27-də Sankt-Peterburq şəhərində keçirilən yoxlama matçında Rusiya millisi 1:3 hesabı ilə uduzub.

## Rusiyadan gələn yeni baş məşqçi...

“Zenit” baş məşqçi Roberto Mançini ilə yollarını ayırıb.

Rusiya mətbuatında yer alan xəbərlərə görə, italiyalı mütəxəssis Rusiyanın “Zenit” klubu ilə müqaviləni ikitərəfli şəkildə pozub. Razılığa əsasən, tərəflərdən heç biri təzminat ödəməyəcək.

Bu həftədən etibarən isə Mançini İtaliya millisinə baş məşqçi postuna təyin olunacaq. O, bu vəzifədə Canpyero Venturanı əvəz edəcək.

Qeyd edək ki, Mançini 2017-ci ilin yayından “Zenit”ə başçılıq edirdi.

## ...köməkçisini ABŞ-dan gətirdi

Andrea Pirlo İtaliya millisinin baş məşqçisi Roberto Mançinin köməkçisi olacaq.

İtaliya mətbuatında yayılan xəbərə görə, İtaliya Futbol Federasiyasının nümayəndələri sabiq yarımmüdafiəçi ilə danışıqlara başlayıb.

Xatırladaq ki, A. Pirlo futbolçu karyerası ərzində “Breşiya”, “İnter”, “Recina”, “Milan”, “Yuventus” və son olaraq “Nyu-York Siti”nin idman şərəfini qoruyub. O, İtaliya millisi ilə DÇ-2006-nın qalibi olub. Andrea Pirlo ötən il futbolçu karyerasını başa vurub.

## Beylin varisi dünyaya gəldi

Madrid “Real”ının futbolçusu Qaret Beylin 3-cü övladı dünyaya göz açıb. Bu barədə uelsli yarımmüdafiəçi şəxsi “Twitter” səhifəsində məlumat verib. İki qız övladı olan 28 yaşlı futbolçunun bu dəfə oğlu dünyaya gəlib. Körpəyə Aksel Çarlz adı verilib.

Qeyd edək ki, Beylin Alba adlı qızının 5, Valentinanın isə 2 yaşı var.




## “Əbədi”ləşən Totti

Roma şəhərində Françesko Tottinin heykəli qoyulub.

Bu barədə İtaliya mətbuatı xəbər yayıb. “Roma”nın əfsanəvi kapitanının heykəlinə “Əbədi” adı verilib.

Heykəlin açılış mərasimi mayın 12-də keçirilib.

## Dünyanın ən güclü tennisçiləri Londona toplaşacaqlar

İspaniyalı tennisçi Rafael Nadal Londonda keçiriləcək turnirdə iştirak edəcək. Turnirdə güclü tennisçilərin mübarizə aparacağı gözlənilir. Belə ki, 128 illik tarixə malik turnirdə Peşəkar Tennisçilər Assosiasiyasının (ATP) reytinq cədvəlində “Top-30”da qərarlaşan 17 idmançı iştirakını təsdiqləyib.



Turnirdə Rafael Nadalla yanaşı, reytinq cədvəlində ilk onluqda qərarlaşan Qriqor Dimitrov, Marin Çiliç, Xuan-Martin del Potro, Kevin Anderson və David Hoffen də birincilik uğrunda mübarizə aparacaq. Həmçinin əməliyyatdan sonra bərpa prosesi keçən Endi Marreyin də turnirdə iştirakı gözlənilir.

Turnirin son qalibi Felisiano Lopes də yayda Londonda gələcək. Turnir iyunun 18-dən 24-dək keçiriləcək.

Turnirin direktoru Stiven Ferrou bildirib ki, dünyanın ən güclü 6 tennisçisinin London turnirində iştirakını təsdiqləməsi bizi çox sevindirir: “Yarışın indidən maraqlı keçəcəyini söyləmək olar. Turnirin başlanmasını səbirsizliklə gözləyirəm”.

## Birinci Devis Kuboku yenilənmiş formatda keçirilə bilər

Tennis üzrə Devis Kubokunun yenilənmiş formatda birinci oyunu Madriddə və ya Fransanın şəhərlərindən birində keçirilə bilər.

İspaniya Tennis Federasiyası nümayəndələrinin “Kosmos” investisiya şirkətinə başçılıq edən futbolçu Jerar Pike ilə görüşü olub. Tərəflər 2019-cu ildə ilk dəfə yeni formatda təşkil olunacaq turnirin təfərrüatlarını, o cümlədən yarışların keçirilmə yerini müzakirə ediblər.

## Ronaldu animasiya qəhrəmanı oldu

Madridin “Real” futbol klubunun hücumçusu Kriştianu Ronaldu “Graphic India” şirkəti ilə birgə “Striker Force 7” animasiya layihəsini dövriyyəyə buraxıb.

Ronaldu burada superqəhrəman rolundadır. O deyib: “Mən həmişə superqəhrəmanların fanatı olmuşam və yeni cizgi filmi serialının yaradılmasında iştirakımdan çox məmnunam. Cizgi filmlərinin personajları bütün dünyanın mədəniyyətlərini və insanlarını birləşdirir, həmçinin futbolu da. Bu layihə vasitəsilə mən iki böyük həvəsi - futbol və superqəhrəmanı birləşdirməyə cəhd edirəm və bunu fanatlarla bölüşürəm”.

“Striker Force 7”nin yaradıcılarından biri və prodüseri Şarad Devarajan deyib: “Kriştianu Ronaldu öz çalışqanlığı və çox gözəl oyunu ilə bütün dünyada milyonlarla insanı ruhlandırır. O, həqiqətən də indiki nəslin superqəhrəmanıdır”.

## Kapitandan kapitana “El-Klasiko” hədiyyəsi

“Barselona”nın yarımmüdafiəçisi Andres İnyesta sonuncu “El-Klasiko”sunda geyindiyi forması “Real”ın müdafiəçisi Serxio Ramosa hədiyyə edib. Madrid klubunun kapitanı “Twitter”hesabında bu barədə şəkillər paylaşıb.

İnyesta formanın üzərində öz ürək sözlərini qeyd edib: “Dostum Serxioya - meydanda rəqib qismində keçirdiyimiz anların xatirəsinə... Hər şeyə görə təşəkkürlər və karyeranda uğurlar”.




Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19